AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

27 yanvar 2017-ci il № 5-8 (9099) Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### DAHİ AZƏRBAYCAN ŞAİRİNİN ADINI DAŞIYAN TANKER XƏZƏRDƏ NEFT VƏ NEFT MƏHSULLARI DAŞIYACAQ

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin nəqliyyat donanmasına məxsus "Nəsimi" tankeri əsaslı təmirdən çıxıb. 13 min ton yükgötürmə qabiliyyətinə malik gəminin "Zığ" Gəmi Təmiri Zavodunda keçən ilin dekabrında başlayan əsaslı təmiri 24 saatlıq növbəli iş prinsipi əsasında həyata keçirilib.*

Səh. 2

### "AĞDAM" YENİDƏN TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTUNDA İSTİSMAR EDİLƏCƏK




*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi " Qapalı Səhmdar Cəmiyyətinin nəqliyyat donanmasına məxsus "Ağdam" gəmi-bərəsi yenidən yükdaşımalara tam hazırdır.*

Səh. 4

### TANAP LAYİHƏSİ ÜZRƏ İŞLƏRİN 60 FAİZİ TAMAMLANIB



*Trans-Anadolu qaz boru kəmərinin (TANAP) quru hissəsinin inşası çərçivəsində 4 lot üzrə indiyədək 1574 kilometr uzunluğunda xəndək qazılıb. Boru kəmərinin 56 düym diametrli və ümumilikdə 1334 kilometr uzunluğundakı ilk üç lotu üzrə xəndəyin qazılması artıq yekunlaşıb.*

Bu barədə AZƏRTAC-a eksklüziv müsahibəsində TANAP-ın baş direktoru Saltuk Düzyol deyib.

Səh. 5

### XƏZƏR DƏNİZİNƏ VƏ KÜR ÇAYINA 850 MİNDƏN ÇOX QIZIL BALIQ BURAXILIB



*Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamentinin Qəbələ Qızıl Balıqartırma Zavodunda yeni kürüalma mövsümü davam edir.*

Səh. 6

### SU EHTİYATLARININ 85 FAİZİ 10 ƏN BÖYÜK GÖLÜN PAYINA DÜŞÜR

*Kanadanın Makqil Universitetinin alimləri dünya göllərində yığılan su ehtiyatlarının həcmini qiymətləndiriblər.*

lenta.ru saytı xəbər verir ki, araşdırma "Nature Communications" jurnalında dərc olunub. Bütün dünyada mövcud olan 1,4 milyon xırda gölün ərazisi 10 hektardan (14 futbol meydançası) artıqdır.

Səh. 7

### SƏRBƏST VƏ YUNAN-ROMA GÜLƏŞİ ÜZRƏ NÖVBƏTİ AZƏRBAYCAN ÇEMPİONATI KEÇİRİLİB



*Bakı İdman Sarayında böyüklər arasında sərbəst və yunan-Roma güləşi üzrə növbəti Azərbaycan çempionatı keçirilib.*

Səh. 8

## "Dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılması haqqında" 1976-cı il tarixli Beynəlxalq Konvensiyaya dəyişikliklər edilməsi barədə" 1996-cı il tarixli Protokolun təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU



Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılması haqqında" 1976-cı il tarixli Beynəlxalq Konvensiyaya dəyişikliklər edilməsi barədə" 1996-cı ildə London şəhərində qəbul edilmiş Protokol təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 16 dekabr 2016-cı il.

## "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli 985 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli 985 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, №7, maddə 1256) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5-ci hissədə "və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ", "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə, "və hava nəqliyyatında" sözləri ", hava və su nəqliyyatında" sözləri ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası" üzrə:

1.2.1. 1.1-ci bənddə "hava" sözündən sonra "və su" sözləri əlavə edilsin;

1.2.2. 1.3.4-cü yarımbənd ləğv edilsin;

1.2.3. 1.3.6-cı yarımbənddə "lisenziya" sözündən sonra "və ya icazə" sözləri əlavə edilsin;

1.2.4. 1.5.3-cü yarımbənddə "hava" sözündən sonra "və su" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 13 yanvar 2017-ci il.

## MİNİMUM AYLIQ ƏMƏKHAQQI ARTIRILIB

***Yanvarın 21-də Prezident İlham Əliyev minimum aylıq əməkhaqqının artırılması haqqında Sərəncam imzalayıb.***

Minimum aylıq əməkhaqqının məbləği 2017-ci il yanvarın 1-dən 116 manat müəyyən edilib.

Dövlət başçısı əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında da Sərəncam imzalayıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılıb ki, 2016-cı il üzrə istehlak qiymətləri indeksinə uyğun olaraq 2017-ci ilin 1 yanvar tarixinə bütün növ əmək pensiyalarının sığorta hissəsinin artırılmasını təmin etsin.

Eyni zamanda, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində toplanmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirmək tapşırılıb. Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## MƏCBURİ KÖÇKÜNLƏR VƏ ONLARA BƏRABƏR TUTULAN ŞƏXSLƏR ÜÇÜN VAHİD AYLIQ MÜAVİNƏT MÜƏYYƏN EDİLİB

***Azərbaycan Prezidenti İlham Əliyev məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında Fərman imzalayıb.***

Dövlət büdcəsindən məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi üçün ayrılan vəsaitin ünvanlılığının təmin edilməsi və çatdırılma mexanizminin sadələşdirilməsi məqsədilə imzalanan Fərmana əsasən, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə 2017-ci il yanvarın 1-dən hər bir məcburi köçkün və onlara bərabər tutulan şəxslər üçün 36 manat məbləğində vahid aylıq müavinəti müəyyən edilib.

Nazirlər Kabinetinə bu Fərmanda göstərilən vahid aylıq müavinətin şamil ediləcəyi kontingenti və müavinətin ödənilməsi qaydasını müəyyən edib Azərbaycan Prezidentinə məlumat vermək, Prezidentin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təklifləri bir ay müddətində hazırlayıb dövlət başçısına təqdim etmək tapşırılıb.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və "Azərsu" Açıq Səhmdar Cəmiyyəti isə məcburi köçkünlərin məskunlaşdığı yerlərdə sayğacların quraşdırılmasını qısa müddətdə təmin etməlidir.

## AZƏRBAYCAN PREZİDENTİ XOCALI SOYQIRIMININ İYİRMİ BEŞİNCİ İLDÖNÜMÜ İLƏ BAĞLI SƏRƏNCAM İMZALAYIB

***Prezident İlham Əliyev Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında Sərəncam imzalayıb.***

Sərəncamda deyilir ki, bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciədən 25 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq Xocalı üzərinə ağır hərbi texnika yeritmiş, yerlə yeksan etdikləri şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutmuşlar. Həmin hərbi-siyasi təcavüz zamanı 613 həmvətənimiz, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca həlak olmuş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür.




Xocalı faciəsini törətməklə Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirən və Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır.

BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, Avropa Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının və eləcə də digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normalarına uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini bu günədək tapmamışdır.

2016-cı ilin aprel ayında növbəti dəfə atəşkəs rejimini pozan Ermənistanın təxribatına cavab olaraq Azərbaycan ordusu tərəfindən torpaqlarımızın bir qisminin işğalçılardan azad edilməsi ölkəmizin ərazi bütövlüyünü hərbi yolla bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz olduğunu bir daha sübuta yetirmiş, beynəlxalq ictimaiyyətə mövcud status-kvonun qəbuledilməzliyini nümayiş etdirərək işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılması tələbini yenidən gündəmə gətirmişdir.

Geniş vüsət almış "Xocalıya ədalət" kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımı ilə bağlı müvafiq qərarlar qəbul edilsə də, belə ağır hərbi cinayət beynəlxalq miqyasda hələ ki öz hüquqi qiymətini almamışdır.

Sərəncama əsasən Azərbaycan Respublikası Prezidenti Administrasiyası Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb həyata keçirilməsini təmin edəcək.

DƏNİZ

27 yanvar 2017-ci il № 5-8 (9099)

# Prezident İlham ƏLİYEV:
# İPƏK YOLU TƏKCƏ ŞİRKƏTLƏRİ, ÖLKƏLƏRİ YOX, HƏM DƏ İNSANLARI BİRLƏŞDİRƏCƏK

***Xəbər verildiyi kimi, yanvarın 19-da Dünya İqtisadi Forumunun "İpək Yolunun səmərəsi" adlı interaktiv iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış edib və sualları cavablandırıb.***

Dünya İqtisadi Forumunun "İpək Yolunun səmərəsi" adlı interaktiv iclasında Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Gürcüstanın Baş naziri Georgi Kvirikaşvili, Monqolustan Prezidenti Saxiaqiyn Elbeqdorj və digər ölkələrin nümayəndələri iştirak edirdilər.

***Tədbirin aparıcısının "Müasir İpək Yoluna yatırılan siyasi və infrastruktur investisiyalar Asiya və Avropada iqtisadi artıma və ahəngdarlığa necə təsir göstərir, İpək Yolu təkcə torpaq üzərindən yox, həm də dənizdən keçir" sualına cavabında Prezident İlham ƏLİYEV dedi:***




- İpək Yolundan danışdıqda biz bu təşəbbüs haqqında daha böyük mənzərəni gözümüzün önünə gətirməliyik. Regionda etibarlı siyasi münasibətlər olmazsa, biz yalnız nəqliyyat infrastrukturuna investisiya yatırmaqla müvəffəqiyyət qazanmayacağıq. Azərbaycan İpək Yolunun bizə aid olan seqmentinin yenidən qurulmasına birbaşa investisiya yatırmış və eyni zamanda, regional əməkdaşlığa gətirib çıxaran təşəbbüslərə start verərək siyasi cəhətdən də bu layihəyə dəstək olmuşdur. Regional əməkdaşlıqdan danışdıqda bu, çox geniş əməkdaşlıqdır. Çünki bu əməkdaşlıq siyasi, iqtisadi, mədəni və digər sektorları əhatə edir. Buna görə də bizim niyyətimiz həmişə ölkələrə, insanlara fayda verəcək, regionda planlaşdırıla bilən, sabitliyi artıran və regionumuzda yaşayan bütün insanlar üçün bərabər imkanlar yaradan layihələrə başlamaq və onlarda iştirak etmək olmuşdur. Buna görə də Azərbaycan İpək Yolunun bizə aid olan seqmentinin yenidən qurulmasında həmişə fəal rol oynamışdır. Ümid edirik ki, cari ildə Gürcüstanda və Türkiyədəki tərəfdaşlarımızla birlikdə biz bu üç ölkədə Bakı, Tbilisi və Qars arasında İpək Yolunun çox önəmli bir bağlantısını tamamlayacağıq və bu da bizə qarşıdan gələn uzun illər ərzində bu layihədən faydalanmaq imkanı verəcək. Bu layihə Çindən Avropaya gedən marşrutu mövcud olan 30-35 gündən 14 günə qədər azaldacaq. Bu, ən qısa marşrut olacaq, lakin əlbəttə ki, ən ucuz marşrut olmayacaq. Bu marşrutu kommersiya baxımından da çox cəlbedici etmək, tarifləri eyni səviyyəyə gətirmək üçün indi biz tərəfdaşlarımızla işləyirik. Hələ ki, bu istiqamətdə hadisələr çox müsbət inkişaf edir və bu layihə tamamlanan kimi biz yüklərin böyük hərəkətindən faydalanacağıq. Eyni zamanda, biz dəniz limanı infrastrukturuna sərmayə yatırırıq. Hazırda biz ildə 25 milyon tondan çox yük qəbul edəcək Xəzər regionunda ən böyük dəniz limanını tikirik. Əlbəttə ki, sizin də düzgün qeyd etdiyiniz kimi, bu yol həm də dənizdən, Xəzər dənizindən keçməlidir. Ona görə də bu layihənin davamlı inkişafını təmin etmək üçün kifayət qədər nəqliyyat infrastrukturu, limanlar, gəmilər və tankerlər mövcud olmalıdır.

***Daha sonra tədbirin aparıcısı İpək Yolu layihəsinin reallaşmasında Çinin fəaliyyəti və bu layihədə iqtisadi diplomatiyanın rolu ilə maraqlandı.***

Prezident İlham ƏLİYEV: Biz artıq hazırlıq işlərinə başlamışdıq. Bugünkü vəziyyət bizim doğru addım atdığımızı göstərir. Çünki indi biz bu çatışmayan seqmentin tamamlanmasına çox yaxınıq. Eyni zamanda, bu, Çinin "Bir kəmər - bir yol" baxışı ilə də üst-üstə düşür. Bizim Çin ilə əlaqələrimiz var və artıq İpək Yolu test rejimində fəaliyyət göstərir. Keçən il ilk konteyner test qatarı Çindən yola düşərək, Mərkəzi Asiyadan, Xəzər regionundan, Azərbaycan, Gürcüstan və Avropadan keçərək gəlmişdir. Biz bu yolun təchizatçılar üçün necə cəlbedici olması üzərində çalışırıq. Eyni zamanda, qeyd etdiyim kimi, bu layihə təkcə investisiyalar və nəqliyyat infrastrukturundan ibarət deyil, - baxmayaraq ki, bunlar çox önəmlidir, - bu layihə həm də qarşılıqlı bağlılıq yaradır. Qarşılıqlı bağlılıq isə dostluğu gücləndirir. İpək Yolu üzərində yerləşən bütün ölkələrin bir-biri ilə yaxşı işçi münasibətləri olduğuna görə biz çox xoşbəxtik. Lakin bu qarşılıqlı bağlılıq bunu daha da gücləndirəcək. Bu, müxtəlif ölkələr - müxtəlif siyasi gündəliyi, mədəniyyəti, dini, tarixi olan ölkələr arasında çox nadir olan əməkdaşlıq formasını təmin edəcək və hesab edirəm ki, bu, dünyanın yeni bir modelidir. Çünki biz Azərbaycanda mədəniyyətlərarası dialoq məsələsinə çoxlu investisiya yatırırıq. Məsələn, keçən il Azərbaycanda "Multikulturalizm İli" elan olunmuşdu, bu il isə "İslam Həmrəyliyi İli" elan olunub. Biz eyni zamanda Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatına üzv olan çox azsaylı ölkələrdənik. Biz Avropa və Asiya arasında yerləşirik. Bu coğrafi yerləşmə, tarixi irsimiz və siyasi gündəliyimiz həmin layihəni ərsəyə gətirmək üçün bizə çox kömək edir. Əlbəttə ki, biz bu layihəyə aid istənilən təşəbbüslərə dəstək verəcəyik. Biz bu istiqamətə daha çox yükdaşımalarını cəlb etmək üçün tərəfdaş ölkələrlə ikitərəfli formatda işləyirik. Təkcə birbaşa İpək Yolu üzərində yerləşən ölkələr yox, həm də bu yolun yaxınlığında yerləşən ölkələr bu imkandan faydalana bilər.

Yeri gəlmişkən, Azərbaycan həm də başqa bir layihə üzərində çalışır. Bu, "Şimal-Cənub" layihəsi adlanır. Bu layihə Hindistanı, İranı, Azərbaycanı, Rusiyanı, Şimali Avropanı və Yaxın Şərqi birləşdirəcək. Bu layihənin bizim əraziyə aid olan hissəsi tamamlanıb. Ümid edirik ki, yaxın iki ildə bu layihə İpək Yoluna inteqrasiya olunacaq, yeni bir nəqliyyat marşrutunun açılmasına imkan verəcək.

***Tədbirin aparıcısı sonra Prezident İlham Əliyevin kiber İpək Yoluna baxışla bağlı fikirləri ilə maraqlandı, layihə üzərində rəqəmsal əlaqəni yaratmaq üçün baxışın nədən ibarət olduğunu soruşdu.***

Prezident İlham ƏLİYEV: Biz bunun üzərində çalışırıq. Əslində, İKT sektoru Azərbaycan üçün prioritet sayılan sahələrdəndir. Biz bu sahəni inkişaf etdirmək üçün investisiya yatırmışıq. Əhalimizin 75 faizdən çoxu internet istifadəçisidir. Hər bir kəndə genişzolaqlı interneti gətirmək üçün bizim dövlət tərəfindən maliyyələşdirilən proqramımız var. Əlbəttə ki, biz kiber təhlükəsizliklə bağlı məsələlər üzərində də çalışırıq. Biz hələ bu təhlükələrə məruz qalmamışıq. Lakin ölkə nə qədər çox inkişaf edərsə, o, bir o qədər də risklərlə üzləşir.

Başqa bir layihə də var. Onun adı TASİM-dir. Bu, İpək Yolu ilə eyni dəhliz üzərindən keçən kommunikasiya xəttidir. Əslində, bu dəhlizlər bir-biri ilə bağlıdır. Məsələn, indi biz enerji resursları haqqında danışırdıq. Sizə deyə bilərəm ki, Azərbaycanın enerji resursları İpək Yolunun bərpasında mühüm rol oynamışdır. Çünki biz tərəfdaş ölkələr qarşısında bu ideyanı irəli sürəndə ən böyük problem maliyyələşmənin olmaması ilə bağlı idi. Biz bir neçə maliyyə institutuna müraciət etdik, lakin onlar maliyyə dəstəyini təmin etmək üçün o qədər də həvəsli deyildi. Beləliklə, biz nə etdik. Biz enerji resurslarından qazandığımız gəlirlərdən istifadə etdik, sərmayə yatırmağa başladıq və tərəfdaşlarımıza maliyyə dəstəyi göstərdik. Bu gün Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən neft və qaz kəmərlərindən ibarət olan enerji dəhlizinə baxsanız, İpək yolunun əsasən, eyni dəhliz olduğunu görəcəksiniz. Əgər bu layihələr olmasa idi, çox güman ki, biz dəmir yolu bağlantısının tikintisinə başlamazdıq. Buna görə də bütün bu dəhlizlər əlaqəlidir.

Bu gün biz artıq elektrik enerjisinin ixracı üçün yeni bir dəhliz yaratmışıq. Bu dəhliz Azərbaycan və Gürcüstandan Türkiyəyə gedir. Biz elektrik xətlərimizi birləşdirmişik. Beləliklə, bir layihə digər bir layihəyə yol açır. Biz indi elektrik enerjisini, qazı və nefti ixrac edirik, dəmir yolunu tikirik və əlbəttə ki, rəqəmsal sahəyə də investisiyalar yatırmağa davam edəcəyik. Doğru qeyd edildiyi kimi, bu layihələrin rəqəmsal dəstəyi səmərəliliyi artıracaq və daha çox faydalar gətirəcəkdir.

***Honq-Konq Universitetinin nümayəndəsi Piter Vatson həyata keçirilən qlobal layihələrdə işçi qüvvələrindən istifadə və İpək Yolu ilə insanların gediş-gəliş prosesləri ilə maraqlandı.***

Prezident İlham ƏLİYEV: Bizim ölkəyə gəldikdə, müsbət demoqrafik dinamikamız var. Müstəqilliyimizi 1991-ci ildə bərpa etdikdən sonra əhalimizin sayı 2 milyondan çox artmışdır. Buna görə bizdə xarici işçi qüvvəsinin cəlb edilməsi ilə bağlı problem yoxdur. Lakin insanların axını ilə bağlı suala gəldikdə hesab edirəm ki, bu, bizim ölkələr üçün də çox yaxşı olacaqdır. Hesab edirəm ki, bu layihələr həm də turistlərin sayının artmasında önəmli rol oynayacaqdır. Düşünürəm ki, daha çox turist cəlb etmək üçün ölkələr arasında müəyyən formada əməkdaşlıq aparılmalıdır. Əlbəttə, müştərək turizm məkanları və ya bir neçə ölkəyə səfərləri gerçəkləşdirən həftəlik proqram haqqında düşünmək olar. Bu yaxınlarda Azərbaycanda elektron viza sistemi adlı yeni bir layihəyə start verilmişdir. İndi Azərbaycana səfər etmək istəyən hər bir şəxs evini və ya iş yerini tərk etmədən ölkəyə səfər etmək üçün 3 gün ərzində elektron vizanı əldə edə bilər. Bütün bu məsələlər bir-biri ilə bağlıdır və əvvəl də qeyd etdiyim kimi, İpək Yolu təkcə şirkətləri, ölkələri yox, həm də insanları birləşdirəcək. Bu, regionumuzu daha da sabit edəcək.

***"Green Peace İnternational" təşkilatının icraçı direktoru Cennifer Morqan İpək Yolu layihəsinin reallaşmasında ekoloji problemlərin həlli, bu işdə həm QHT-lərin rolu, həm də dayanıqlı inkişaf məsələləri ilə maraqlandı.***

Prezident İlham ƏLİYEV: Ətraf mühitlə bağlı məsələlərə həmişə böyük narahatlıq və diqqətlə yanaşılır. Mən sizə neft boru kəmərinin Azərbaycandan Gürcüstana və Türkiyənin Aralıq dənizinə podrat işlərini apardığımız vaxtı xatırlada bilərəm. Həmin vaxt vəziyyəti müşahidə etmək üçün ətraf mühitlə məşğul olan QHT-lər çox fəal idi və canlılar üçün ətraf mühiti təmin etmək məqsədilə bir çox tədbirlər görülmüşdür. Bütün tədbirlər ən yüksək səviyyədə görülmüşdür.

Ekoloji fəlakətdən əziyyət çəkmiş bir ölkə kimi, Azərbaycan təmiz enerjiyə çoxlu investisiya yatırır. Biz hidro, günəş və külək enerjilərinə indi çoxlu investisiya yatırırıq. Eyni zamanda, Azərbaycanda, xüsusilə Xəzər dənizinin bizə aid olan hissəsində neft-qaz əməliyyatları tamamilə beynəlxalq standartlara uyğun surətdə aparılır. Azərbaycan, Bakı 1847-ci ildə dünyada neftin ilk dəfə istehsal olunduğu məkandır. Həmin vaxtda və XX əsrin əksər hissəsində ekoloji məsələlər prioritet sayılmırdı. Odur ki, biz müstəqilliyimizi bərpa etdikdən sonra həmin amilə görə ətraf mühitin çirklənməsi nöqteyi-nəzərdən çox çətin vəziyyətdə idik. Xüsusilə Abşeron yarımadasını, Xəzər dənizini nəzərdə tuturam. Biz bu əraziləri təmizləmək üçün yüz milyonlarla dollar xərcləmişik və xərcləməkdə davam edirik. Əlbəttə ki, biz ətraf mühitin qorunmasına çox ehtiyatla yanaşırıq. Biz bu hədəflərə yalnız yaxından əməkdaşlıq edərək nail ola bilərik. Çünki biz eyni səmanı, havanı paylaşırıq, eyni suyu içirik. Buna görə də düşünürəm ki, ölkələrin öhdəlikləri və aparıcı QHT-lərin bu vəziyyəti yaxından müşahidə etməsi çox önəmlidir.

***Tədbirin aparıcısı İpək Yolu layihəsinin icrası zamanı səmərəli təşəbbüslərə özəl sektorun investisiyalarının cəlb olunmasının əhəmiyyətindən danışdı, bu niyyəti reallaşdırmaq, mövcud layihələrə özəl sektor kapitalını daha çox cəlb etmək üçün nəyin lazım olması ilə maraqlandı.***

Prezident İlham ƏLİYEV: Azərbaycanda bütün əsas nəqliyyat infrastruktur layihələri dövlət büdcəsindən və Dövlət Neft Fondundan maliyyələşdirilmişdir. Çünki birincisi, özəl sektorun investisiya yatırmaq üçün kifayət qədər vəsaiti yox idi və ikincisi, bu, strateji və uzunmüddətli investisiya idi. Bu investisiyalar uzun illər ərzində özünü doğruldacaq və gəlir gətirəcəkdir. Buna görə dəmir yolu infrastrukturu, Xəzər gəmiçiliyi, hava yolları, yollar, İpək Yolu - hər şey dövlət vəsaiti hesabına edilir. Lakin bu, özəl sektor üçün də imkanlar yaradır.

Mən Bakıda yeni limanın tikintisini qeyd etdim. Bizim artıq azad zona kimi bir neçə min hektar torpaq ərazimiz var və bu, dəniz limanının yaxınlığında yerləşir. Bütün yerli və xarici şirkətlər bu layihədə iştirak etməyə və istehsal prosesinə qoşulmağa dəvət olunurlar. Eyni zamanda, Azərbaycanın müxtəlif bölgələrində xüsusi sənaye zonaları təşkil etmək üçün biz xüsusi infrastruktur yaradırıq və orada su, qaz, elektrik enerjisi, yollar, dəmir yolu olduqda özəl sektor artıq investor qismində iştirak edir. Bundan sonra onlar bu işlərə cəlb olunurlar. Beləliklə, biz özəl sektora yaxşı şərait yaratmağa və onlar üçün çox ağır olan maliyyə yükü qoymamağa və infrastruktur yaratmaqla özəl sektoru stimullaşdırmağa çalışırıq.

Bu gün bir çox ölkələr İpək Yolunun müxtəlif seqmentlərinə diqqət yetirir. Biz bilirik ki, İpək Yolu qlobal layihədir. Ona görə də mənim təklifim İpək Yolu üzərində yerləşən, İpək Yoluna qoşulmaq istəyən, lakin ola bilsin, ona yaxın olmayan bütün ölkələrin nazirlərinin görüşünün təşkil edilməsi, layihənin yenidən nəzərdən keçirilməsi və nə vaxt, nəyi etmək lazım olması - qrafik, hədəflər, həyata keçirilmə ilə bağlı konkret qərarların qəbul edilməsi və bütün ölkələr arasında əlaqələndirmə qurumunun yaradılması, ildə bir dəfə görüşün keçirilməsi və layihənin icrasına nəzarət olunmasından ibarətdir.

## GƏMİÇİLİKDƏ "TAX FREE" SİSTEMİ TƏTBİQ OLUNACAQ




***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində "Tax Free" sistemi tətbiq olunacaq.***

Bu Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"na edilən dəyişikliklərdə öz əksini tapıb.

Artıq bir neçə aydır ki, ölkəmizdə tətbiqinə başlanılan "Tax Free" sistemindən bundan sonra "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin xətti ilə səfər edən xarici vətəndaşlar da istifadə edəcək. "Tax Free" sistemi vasitəsilə xarici ölkə vətəndaşı, turist ölkədən çıxarkən təqdim edilən məhsul üzrə əlavə dəyər vergisinin (ƏDV) faizi həmin şəxsə qaytarılır. Bunun üçün alınan məhsulun qəbzi olmalıdır və mağazada məhsul alınarkən xüsusi blank doldurulmalıdır. Blankda geri alınacaq məbləğin miqdarı göstərilir. Ölkəni tərk edərkən həmin sənəd gömrük orqanına təqdim edilir və məhsul üçün ödənilən ƏDV geri qaytarılır.

## BATUMİDƏ TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTUNUN İNKİŞAFI ÜZRƏ İŞÇİ QRUPUNUN İLK İCLASI KEÇİRİLİB







***Yanvarın 17-də Gürcüstanın Batumi şəhərində Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı üzrə işçi qrupunun cari ildə ilk iclası keçirilib. İclasda Çin-Avropa istiqamətində Xəzər üzərindən keçməklə Transxəzər dəhlizi üzrə tariflər bir daha nəzərdən keçirilib, marşrutun digər alternativ xətlərlə müqayisəli təhlili aparılıb.***

Toplantıda dəhlizin rəqabət qabiliyyətinin daha da artırılması, yarana biləcək çətinliklərin aradan qaldırılması məsələləri də diqqət mərkəzində olub. İşçi qrupunun üzvləri Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsindən sonra yüklərin Xəzər üzərindən keçməklə Avropaya, Ukraynada mövcud geosiyasi vəziyyətlə bağlı isə yüklərin Orta Asiya və Çinə çatdırılması imkanları barədə ətraflı fikir mübadiləsi aparıblar.

Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Ukrayna və Polşanın əlaqədar qurumlarının qatıldığı toplantıda ölkəmizi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin nümayəndələri təmsil ediblər.

Sonda iclasın yekunlarına dair protokol imzalanıb.

Yanvarın 18-də isə "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasının təsisçilərinin iclası keçirilib. İclasda Assosiasiyanın 2017-ci il üçün iş planı təsdiq olunub.

Xatırladaq ki, 2016-cı ilin oktyabrında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna hüquqi status verilərək Beynəlxalq Assosiasiya formatına gətirilib.

## DAHİ AZƏRBAYCAN ŞAİRİNİN ADINI DAŞIYAN TANKER XƏZƏRDƏ NEFT VƏ NEFT MƏHSULLARI DAŞIYACAQ

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin nəqliyyat donanmasına məxsus "Nəsimi" tankeri əsaslı təmirdən çıxıb. 13 min ton yükgötürmə qabiliyyətinə malik gəminin "Zığ" Gəmi Təmiri Zavodunda keçən ilin dekabrında başlayan əsaslı təmiri 24 saatlıq növbəli iş prinsipi əsasında həyata keçirilib.***







Tankerin gövdəsi, baş və köməkçi mühərrikləri, bütün sistemləri ( yük, ballast, soyutma, yağlama sistemləri və s.) yüksək keyfiyyətlə təmir olunub. Radio və naviqasiya cihazları, göyərtə mexanizmləri, lövbər bucurqadı, şpil, xilasedici avadanlıqlar və digər qurğular saz vəziyyətə gətirilib. Gəmi təmirçiləri xidməti və yaşayış otaqlarının da heyətin ürəyincə olması üçün əllərindən gələni əsirgəməyiblər.

Dəniz sınaq yoxlanışından uğurla çıxan "Nəsimi" tankeri növbəti 5 il üçün istismara tam hazırdır.

Dahi Azərbaycan şairinin adını daşıyan tanker Xəzərdə istismar ediləcək, Rusiya, Qazaxıstan, Türkmənistan istiqamətində neft və neft məhsulları daşıyacaq.

# 20 YANVAR ŞƏHİDLƏRİNİN XATİRƏSİ EHTİRAMLA YAD EDİLDİ

*...20 YANVAR FACİƏSİ ŞƏHİDLƏRİNİN AZƏRBAYCAN TARİXİNDƏ XÜSUSİ YERİ VAR... ONLAR HEÇ BİR VURUŞA GİRMƏDƏN ÖZ VƏTƏNİNİN, XALQININ AZADLIĞI YOLUNDA ŞƏHİD OLMUŞLAR.*

*...EYNİ ZAMANDA ONU QEYD ETMƏK LAZIMDIR Kİ, O QANLI YANVAR GÜNÜ XALQIMIZ ÖZ ƏZİZ VƏTƏNDAŞLARINI İTİRSƏ DƏ, ÖZ NAMUSUNU, ŞƏRƏFİNİ QORUYA BİLMİŞDİR. XALQIMIZ SÜBUT ETMİŞDİR Kİ, ONUN İRADƏSİNİ QIRMAQ OLMAZ.*

*HEYDƏR ƏLİYEV,*
*ÜMUMMİLLİ LİDER*

20 YANVAR GÜNÜ BİZİM BÖYÜK FACİƏMİZDİR, ANCAQ EYNİ ZAMANDA AZƏRBAYCAN TARİXİNİN QƏHRƏMANLIQ SƏHİFƏSİDİR. AZƏRBAYCAN XALQI ÖZ İRADƏSİNİ GÖSTƏRDİ. O GÜNDƏN KEÇƏN MÜDDƏT ƏRZİNDƏ AZƏRBAYCAN DEMƏK OLAR Kİ, TAMAMİLƏ YENİ MƏRHƏLƏYƏ QƏDƏM QOYDU...

*İLHAM ƏLİYEV,*
*AZƏRBAYCAN RESPUBLİKASININ*
*PREZİDENTİ*

SOVET QOŞUNLARININ QANUNSUZ YERİDİLMƏSİ NƏTİCƏSİNDƏ BAKIDA VƏ RESPUBLİKANIN RAYONLARINDA 147 NƏFƏR ÖLDÜRÜLMÜŞ, 744 NƏFƏR YARALANMIŞ, 841 NƏFƏR QANUNSUZ HƏBS OLUNMUŞDU. ÖLDÜRÜLƏNLƏRİN ƏKSƏRİYYƏTİ XÜSUSİ QƏDDARLIQLA QƏTLƏ YETİRİLMİŞDİ. MƏSƏLƏN, ŞƏHİDLƏRDƏN BİRİNƏ 23, DİGƏRİNƏ 21, BAŞQA BİRİNƏ 10-DAN ÇOX GÜLLƏ VURULMUŞ, BƏZİLƏRİ SÜNGÜ-BIÇAQLA QƏTLƏ YETİRİLMİŞ, TƏCİLİ YARDIM MAŞINLARI ATƏŞƏ TUTULMUŞDU... HƏLAK OLANLAR ARASINDA YETKİNLİK YAŞINA ÇATMAYANLAR, QADINLAR, QOCALAR, ŞİKƏSTLƏR DƏ VAR İDİ.

HƏRBİ QULLUQÇULAR TƏRƏFİNDƏN 200 EV VƏ MƏNZİL, 80 AVTOMAŞIN, KÜLLÜ MİQDARDA DÖVLƏT VƏ ŞƏXSİ ƏMLAK MƏHV EDİLMİŞDİ.

## R.Vəliyev: *20 Yanvar faciəsi günlərində dənizçilər əsl fədakarlıq və qəhrəmanlıq nümunəsi göstərərək, sovet hərbçilərinin təcavüzünə qətiyyətlə sinə gəriblər*



***Yanvarın 19-da "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində 20 Yanvar faciəsinin 27-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.***

Tədbir xalqımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Sonra "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev 20 Yanvar hadisələrinin tariximizə ən faciəli günlərdən biri kimi, eyni zamanda, qəhrəmanlıq səhifəsi kimi daxil olduğunu bildirib. 20 Yanvar hadisələrindən danışaraq vurğulayıb ki, bu faciə Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə, sovet imperiyası rəhbərlərinin ölkəmizlə bağlı apardığı qərəzli siyasətə etiraz əlaməti olaraq küçələrə çıxan dinc əhaliyə divan tutmaq məqsədilə törədilib. Başqa sözlə, 20 Yanvar qətliamı xalqımızın gözünü qorxutmaq, milli oyanışını, torpaq uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi olub.









Gəmiçiliyin rəhbəri qeyd edib ki, böyük qəddarlıqla törədilməsinə baxmayaraq, bu qətliam xalqımızın müstəqillik uğrunda mübarizə əzmini qıra bilməyib. Əksinə, xalq daha da birləşib, yenilməzliyini, Vətənə, torpağa sədaqətini, azadlığa qovuşmaq istəyini bütün dünyaya bəyan edib. Rauf Vəliyevin sözlərinə görə 20 Yanvar həm də bizim müstəqilliyə gedən yolumuzu xeyli qısaldıb.

Başımıza gətirilən müsibətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Ulu Öndər Heydər Əliyevin göstərdiyi səylərdən ətraflı söz açan Rauf Vəliyev, heç nədən çəkinmədən faciənin ertəsi günü ailə üzvləri ilə birlikdə Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransının əhəmiyyətini vurğulayıb. O, bu hadisəyə hüquqi-siyasi qiymətin də ilk dəfə Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra verildiyini diqqətə çatdırıb və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların ailə üzvlərinə kömək üçün imzaladığı sənədlərin isə Ulu Öndərin bu insanların xatirəsinə nə qədər böyük ehtiram bəslədiyinin göstəricisi olduğunu bildirib.

R.Vəliyevin sözlərinə görə, baş verən hadisə zamanı dənizçilər əsl fədakarlıq və qəhrəmanlıq nümunəsi göstərərək, sovet hərbçilərinin təcavüzünə qətiyyətlə sinə gəriblər. Həm bununla, həm də xalqın mübarizəsi ilə bağlı arxivlərdə kifayət qədər foto və videolar var. Gəmiçiliyin rəhbəri onların həyatlarını riskə atmalarını, ölümün gözünə dik baxmalarını, xalqımızla birlik nümayiş etdirərək tarix yazmalarını diqqətə çatdırıb. Dənizçilər hadisə baş verən zaman və ondan sonrakı günlərdə daim xalqla həmrəy olublar, Bakı buxtasında olan gəmilər Bakıda törədilən qırğınları dünya ictimaiyyətinə çatdırıblar. Gəmilərin güllələbaran edilməsi belə milli birliyə və qəhrəmanlıq tarixinin yazılmasına maneə ola bilmədi.

"Şəhid olan dənizçilərin xatirəsi hər zaman əziz tutulur, daim anılır, adları əbədiləşdirilir. Gəmilərimizə şəhid olan dənizçilərin adları verilərək onların daim anılmasını diqqətdə saxlayırıq və bundan sonra da bu məsələ hər zaman diqqətimizdə olacaq. Həmçinin 20 Yanvar faciəsi zamanı dənizçilərin göstərdiyi qəhrəmanlıqla bağlı film çəkilir. Gələn il bu filmin təqdim olunması nəzərdə tutulub", - deyə R.Vəliyev vurğulayıb.

Qanı bahasına da olsa, xalqımızın istəyinə nail olduğunu, azadlığa və müstəqilliyə qovuşduğunu diqqətə çatdıran Rauf Vəliyev bildirib ki, 20 Yanvar faciəsi azadlıq mübarizəmizin şanlı səhifəsi kimi Azərbaycan xalqının xatirəsindən heç vaxt silinməyəcək.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə gündən-günə güclənən müstəqil Azərbaycanın ərazi bütövlüyünün tezliklə tam təmin ediləcəyinə isə bu gün heç kəsin şübhəsi yoxdur.

Sonra, Qanlı Yanvar hadisələrinin şahidləri - veteran kapitan Kərəm Məmmədov, Məhəbbət Muradov, Səyyar Hacıyev, Rövşən Dəmirov bu faciəni ilkin olaraq dünya ictimaiyyətinə çatdıran, sovet imperiyasının törətdiyi qırğın və vəhşiliyin qarşısını almağa çalışan dənizçilərimizin şücaətindən və qəhrəmanlığından iftixarla danışıblar.

Bildirilib ki, yanvarın 20-də Bakı buxtasında 100-dən çox gəmi lövbər salmışdı. Bu zaman "Sabit Orucov" gəmisi qərargah seçilib və baş verən hadisə ilə bağlı məlumatlar məhz bu gəmi vasitəsilə ötürülmüşdü. O günlər dənizçilər bütün dünyanın diqqətini Bakıdakı qanlı faciəyə yönəltmək üçün gəmilərimizdən hər saat "SOS" siqnalı verirdi. Bununla da qəhrəman dənizçilər həyatlarını riskə ataraq Bakı buxtasında imperiya ordusu ilə qeyri-bərabər mübarizəyə qalxıb. Həmin dövrdə əksər gəmilərimiz ciddi zədə aldı, bəzi gəmilərdə mindən çox güllə, mərmi izləri vardı. Bu cür qəhrəmanlıq sayəsində sovet ordusu dənizçilərlə dialoq aparmağa məcbur qalıb.

Qeyd edilib ki, dənizçilərin şücaəti sayəsində 50-dən çox dənizçi səsimizə səs verib və onlar da 20 Yanvar hadisəsinin dünya ictimaiyyətinə çatdırılmasında həmrəylik nümayiş etdirib. İlk dəfə tarixdə dənizçilərin həmrəyliyi nümayiş etdirilib. Qəhrəman dənizçilər Azərbaycan, rus və ingilis dillərində məlumatlar hazırlayaraq yayıblar.

Bu tarixi hadisədə dənizçilərin qəhrəmanlığından və dənizçi peşəsindən qürur duyduqlarını diqqətə çatdıran hadisənin şahidləri Ulu Öndər tərəfindən hadisənin qurbanlarına "20 Yanvar şəhidləri" statusunun verildiyini də vurğulayıb.

Qeyd edək ki, dənizçilərimiz Qanlı Yanvardan sonra başlamış kütləvi repressiyalardan da əziyyət çəkiblər. Həbs edilən 40-a yaxın dənizçi işgəncələrə məruz qalıb.

Sonda tədbir iştirakçıları 20 Yanvar faciəsindən bəhs edən sənədli filmə baxıblar.

## "SƏDAQƏT" XALÇASI 20 YANVAR ŞƏHİDLƏRİ İLHAM VƏ FƏRİZƏYƏ HƏSR OLUNUB



***Yanvarın 18-də Azərbaycan Xalça Muzeyində 20 Yanvar faciəsinin 27-ci ildönümünə həsr olunmuş tədbirdə 20 Yanvar şəhidləri İlham və həyat yoldaşı Fərizəyə həsr olunan "Sədaqət" xalçası təqdim edilib.***

Faciə qəhrəmanlarının obrazını xalçaçı rəssam Səməd Təbrizli canlandırıb. Xalçanın müəllifinin fikrincə, gələcək nəsillər Azərbaycan tarixinin nişanəsi kimi xalçanı muzeylərdə görəcək və bu sənət nümunəsi onların mənəvi tərbiyəsində böyük rol oynayacaq: "Xalça üzərində uzun müddət iş aparılıb. Xalçanın rəssamlıq işi 3 ay, toxunması 7 ay çəkib. Toxunma zamanı 15 fərqli qayçıdan istifadə edilib ki, bu da xalçada toxunan rəsmlərin qabarıq forma alması üçün idi."

1,05X1,55 metr ölçüdə olan "Sədaqət" xalçasında 290-dan çox rəngdən istifadə edilib.

Xatırladaq ki, 20 Yanvar şəhidi İlham Allahverdiyev Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin işçisi idi və gəmi təmiri zavodunda tokar işləyirdi.





## 20 YANVAR HƏM DƏ TARİXİMİZİN QƏHRƏMANLIQ SƏHİFƏSİDİR

***Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasında 20 Yanvar şəhidləri yad edilib.***

Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən verilən məlumata görə, 20 Yanvar faciəsinin 27–ci ildönümü ilə bağlı keçirilən anım mərasimində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov bildirib ki, 1990-cı ilin 20 Yanvar hadisələri 20-ci əsr tarixinə ən amansız cinayətlərdən biri kimi düşüb: "Bu hadisələr müstəqillik tariximizdə xalqımızın cəsarətli addımlarını əks etdirən səhifələrdəndir.

"20 Yanvar günü həm də Milli Qürur günümüzdür. Azərbaycanın suverenliyi uğrunda ayağa qalxmış əliyalın xalq silahlı imperiya qoşunlarının qarşısında böyük şücaət göstərib, mərdlik və igidlik simvoluna çevrilib. Şərəfli zirvəyə - şəhidliyə yüksələrək həm özlərinə, həm də Vətənə qəhrəmanlıq salnaməsi yaratdılar. Bakıya yeridilən qoşunlar paytaxt və rayonlarda 147 nəfəri qətlə yetirdi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Bu olaylar Azərbaycan xalqının azadlıq eşqini boğmağa hesablansa da Vətən sevgisi ilə coşan insanların böyük müqaviməti ilə qarşılaşdı. Azərbaycan vətəndaşı üstünə şığıyan tanklara, avtomat və pulemyot güllələrinə qarşı sinəsini sipər etdi. Onlar qanları bahasına müstəqilliyin şirinliyini dadan ilk insanlar oldular", - deyə Q.Qurbanov vurğulayıb.

Administrasiyanın rəisi Qüdrət Qurbanov o ağır günlərdə məhz ümummilli lider Heydər Əliyevin xalqın səsinə səs verdiyini xüsusilə vurğulayıb: "Yalnız Heydər Əliyev özünün və ailə üzvlərinin həyatını təhlükədə qoyaraq yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş və terror aktını qətiyyətlə pisləmişdir. Ulu Öndərin siyasi hakimiyyətə yenidən qayıdışından sonra 1993-cü ildə 20 Yanvar faciəsinin səbəblərinin araşdırılması və onu törədənlərin məsuliyyətə cəlb olunması istiqamətində mühüm addımlar atılıb. Bu faciəyə dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün şəhid ailələrinin problemlərini daim diqqətdə saxlayır və bunun üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Məhz dövlət başçısının yorulmaz fəaliyyətinin nəticəsidir ki, Azərbaycan bu gün bölgənin ən qüdrətli, nüfuzlu dövlətinə çevrilib və hər an düşmənə layiqli cavab vermək gücünə malikdir".

Anım mərasimində çıxış edənlər, o zaman Mixayıl Qorbaçov başda olmaqla imperiya rəhbərlərinin Azərbaycan xalqına qarşı törətdiyi qanlı hadisələri qətiyyətlə pisləyiblər. 20 Yanvar hadisəsinin Ümummilli Hüzn Günü olması ilə yanaşı, həm də tariximizin şərəfli, qəhrəmanlıq səhifəsi olduğunu vurğulayıblar.





## "VƏTƏNİN AZADLIĞI UĞRUNDA BİR YUMRUQ KİMİ BİRLƏŞMİŞDİK"

***Yanvarın 19-da "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-də 20 Yanvar faciəsinin 27-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.***

Bakı Limanının mətbuat xidmətindən bildirilib ki, Azərbaycan dövlət himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirdə çıxış edən "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov 20 Yanvar hadisələrinin Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda aparılan mübarizə tarixinə əbədi qəhrəmanlıq səhifəsi kimi daxil olduğunu vurğulayıb.

O bildirib ki, Azərbaycan xalqı 1990-cı il yanvarın 20-də hərbi, siyasi və mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gəlmək, şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirib. O qeyd edib ki, 20 Yanvar faciəsinə gerçək hüquqi-siyasi qiymət də məhz Ümummilli Liderin təşəbbüsü ilə verildi. "Bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz azad, suveren dövlət kimi inkişafın və uğurun yüksək zirvələrini fəth etməkdədir. Ölkə başçısının yürütdüyü müstəqil siyasət nəticəsində ölkəmizin günbəgün artan inkişafını gördükcə hər birimiz fəxr və qürur hissi ilə deyə bilərik ki, istiqlal şəhidlərimizin canları və qanları bahasına etdikləri fədakarlıq hədər getməyib".

Daha sonra tədbirdə 20 Yanvar hadisələri zamanı qəhrəmanlıq göstərmiş və bütün xalqımızla həmrəy olmuş limançılar Mircavan Cabbarov və Eldar Rəcəbov dənizçilərimizin şücaətindən geniş söhbət açıblar.

Mircavan Cabbarov çıxışı zamanı 20 Yanvar günü baş verən hadisələri bir daha gözünün qabağında canlandıraraq bildirib ki, "19-dan 20-nə keçən gecə limanda növbətçilik təşkil olunub: "O zaman mən əsas yük terminalına gəldim və buradakı limançılarla birlikdə limanı konteynerlərlə elə bağladıq ki, hərbi gəmidəki düşmənlər Limana daxil ola bilməsinlər. Lakin bu hadisələr biz limançıları qorxutmadı, yaralansaq və xəsarət alsaq da Vətənin azadlığı uğrunda bir yumruq kimi birləşdik".

Bu hadisələrin canlı şahidi olmasa da bu günün önəmini Azərbaycan tarixi üçün anlayan gənc limançı Cavad Seyidov da çıxış edərək igid oğul və qızların qanı bahasına qazanılan, ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulan, eyni zamanda, bu gün Prezident İlham Əliyevin məqsədyönlü siyasəti ilə davam etdirilən dövlət siyasətinin əsasını təşkil edən müstəqilliyin gənc nəsillər tərəfindən qorunub saxlanılmasının vacibliyindən bəhs edib.

# “AĞDAM” YENİDƏN TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTUNDA İSTİSMAR EDİLƏCƏK

***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ” Qapalı Səhmdar Cəmiyyətinin nəqliyyat donanmasına məxsus “Ağdam” gəmi-bərəsi yenidən yükdaşımalara tam hazırdır.***

2016-cı ilin dekabrından “Zığ” Gəmi Təmiri Zavodunda başlayan əsaslı təmir işləri qısa vaxtda və yüksək keyfiyyətlə həyata keçirilib. Gəmi-bərənin baş və köməkçi mühərrikləri, su, yağ, yanacaq, ballast və sair sistemləri əsaslı təmir olunub. Braşpil, lövbər qurğuları və zəncirləri saz hala gətirilib, sükan qurğusu və digər mexanizmlərdə zəruri təmir işləri görülüb.

Eyni zamanda, “Ağdam”ın bütün sualtı və suüstü hissələri tam təmizlənərək rənglənib, yaşayış və xidməti otaqları müasir tələblər səviyyəsində təmir edilib.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev “Ağdam” gəmi-bərəsində olub. Sədrə təmirin necə həyata keçirildiyi barədə məlumat verilib. Rauf Vəliyev gəmi-bərənin ayrı-ayrı bölmələrinin təmirdən sonrakı vəziyyəti ilə tanış olub. “Ağdam”ın heyəti ilə də görüşən sədr dənizçilərə bir sıra tapşırıqlarını verib. Xüsusilə vurğulayıb ki, təhlükəsizlik, nizam-intizam kimi məsələlərə daha çox diqqət yetirilməlidir. Gəmiçiliyin rəhbəri eyni zamanda, işində fərqlənən əməkdaşların karyeralarında da irəliləyişlərin olacağını bildirib.

Dəniz sınaq yoxlamasından da uğurla çıxan “Ağdam” yenidən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda istismar ediləcək, Bakı-Türkmənbaşı-Bakı və Bakı-Aktau-Bakı xətlərində müntəzəm çıxacağı səfərlərdə dəmir yolu vaqonları və sərnişin daşıyacaq.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC Xəzərdə yeganə bərə operatorudur. Hazırda Gəmiçiliyin donanmasında 13 gəmi-bərə, 2 Ro-Ro tipli gəmi vardır. Donanmada mövcud olan 13 gəmi-bərədən 7-si 28 vaqon, 6-sı isə 52-54 vaqon götürmə imkanına malikdir.



















# KİÇİK HƏCMLİ GƏMİLƏRİN TƏHLÜKƏSİZ İSTİSMARINA NƏZARƏT TƏDBİRLƏRİ DAVAM ETDİRİLİR

***Fövqəladə Hallar Nazirliyi (FHN) Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyinin əməkdaşları sahilyanı ərazilərdə su nəqliyyatı vasitələrinin təhlükəsiz istismarına nəzarət qaydalarına əməl olunmasını təmin etmək məqsədilə mütəmadi əməliyyat tədbirləri həyata keçirir.***

FHN-dən bildiriblər ki, görülən tədbirlər nəticəsində gəmi istifadəçiləri tərəfindən Xəzər dənizində Pirallahı rayonu, Şüvəlan və Ələt qəsəbələri istiqamətində beş, Neftçala rayonu ərazisində bir, Cənub regionu sahilyanı ərazisində bir dəfə “Kiçik həcmli gəmilərin təhlükəsiz istismarına nəzarət” və “Kiçik həcmli gəmilərə texniki nəzarət” qaydalarının pozulduğu faktı aşkar edilib.

Həmin gəmilərin istifadəçiləri barəsində mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər görülüb.

Dövlət Müfəttişliyi kiçik həcmli gəmilərin təhlükəsiz istismarına nəzarət tədbirlərini davam etdirir.

# GÖYƏRTƏSİNDƏ 110 MİQRANTIN OLDUĞU GƏMİ BATIB

***Liviya sahillərində göyərtəsində 110 miqrantın olduğu gəmi batıb.***



“RİA Novosti” agentliyi xəbər verir ki, onlardan 4-nü xilas etmək mümkün olub. Səkkiz nəfərin cəsədi tapılıb.

Bu barədə Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndəsi Flavio di Cakomo bildirib.

Hadisə Liviya sahilindən 50 kilometr aralıda baş verib.



# AZƏRBAYCAN ƏHALİSİNİN SAYI 9802 MİN NƏFƏRDİR

***Azərbaycan əhalisinin sayı 2016-cı ilin əvvəlindən 96,4 min nəfər və ya 1,0 faiz artaraq ötən il dekabr ayının 1-i vəziyyətinə 9802,0 min nəfərə çatıb.***

Dövlət Statistika Komitəsindən bildiriblər ki, bir kvadratkilometrə düşən əhalinin sıxlığı 113 nəfər olub. Əhalinin ümumi sayının 53,1 faizini şəhər, 46,9 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1007 nəfər qadın düşür.

2016-cı ilin yanvar-noyabr aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkə üzrə 146,6 min, yaxud hər gün orta hesabla 438 doğulan körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 16,5 təşkil edib. Doğulan körpələrin 53,3 faizi oğlan, 46,7 faizi isə qız uşaqlarından ibarətdir. Doğulan körpələrdən 2522-si əkiz, 63-ü isə üçəmlərdir.

Ötən ilin yanvar-noyabr ayları ərzində ölkədə 51,6 min ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 5,8 təşkil edib. Qeydiyyat şöbələri tərəfindən 2016-cı ilin 11 ayı ərzində 60,8 min nikah və 12,0 min boşanma halları qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,9, boşanmaların sayı isə 1,4 olub.

# GƏMİÇİLİKDƏ ƏMƏKDAŞLARIN PEŞƏKARLIQ SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİNƏ XİDMƏT EDƏN TƏLİMLƏR KEÇİRİLİB

***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin əməkdaşları üçün növbəti təlimlər keçirilib. Əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, fəaliyyətin beynəlxalq tələblərə uyğun qurulması Gəmiçiliyin əsas hədəflərindəndir.***

Gəmiçiliyin müvafiq işçiləri üçün nəzərdə tutulan bu təlimlər Beynəlxalq Dəniz Təşkilatının (İMO) 6.09 model kursu üzrə “Təlimçinin təlimi və İMO-nun 3.12 və 1.30 model kursları üzrə “Dənizçilik sahəsində səlahiyyətli imtahan götürən” istiqamətləri əsasında keçirilib.

İnteraktiv formada təşkil olunan məşğələləri Gəmiçiliyin Təlim Tədris Mərkəzinin direktoru Emil Manafov və kapitan Titos Giannakakis aparıblar. Dinləyicilərin tədris prosesində üzləşdikləri çətinliklər, kursların təşkili, proqramların müasirləşdirilməsi ilə bağlı suallara yerindəcə ətraflı cavab verilib.









# ERMƏNİSTAN NÜMAYƏNDƏ HEYƏTİNİN ÖZ AMPLUASINA UYĞUN COŞUB ÖZÜNDƏN ÇIXMASINDAN BU DƏFƏ DƏ BİR ŞEY ÇIXMADI

***Ermənistan diplomatiyasına növbəti ləzzətli şapalaq dəydi. Bu ölkənin nümayəndə heyətinin Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu təsdiq edən qətnamənin AŞPA-da qəbul edilməsinə yol verməmək üçün göstərdiyi bütün cəhdlər iflasa uğradı. Yanvarın 24-də plenar iclasda Ukrayna nümayəndə heyətinin başçısı, elm, mədəniyyət, təhsil və media komitəsinin sədri Vladimir Aryevin “Avropada jurnalistlərə və mətbuat azadlığına hücumlar” mövzusunda məruzəsi dinlənilib.***



Ermənistan nümayəndə heyətinin öz ampluasına uyğun coşub özündən çıxması ilə müşayiət olunan dinləmələrin və sərt müzakirələrin yekunlarına görə qəbul edilən qətnamənin 9-cu bəndində Dağlıq Qarabağın Azərbaycana, Abxaziya və Cənubi Osetiyanın Gürcüstana, Dnestryanı bölgənin Moldovaya məxsus olması növbəti dəfə təsdiq edilib, həmin əraziləri nəzarətdə saxlayan rejimlərin separatçı mahiyyəti ("de facto controlled by separatist regimes") qabardılıb, bu ərazilər “qanunsuzluğun hökm sürdüyü tamamilə qeyri-şəffaf zonalar” ("totally non-transparent and lawless areas") adlandırılıb. Ermənistan nümayəndə heyətinin bu müddəaları çıxarmaq ilə bağlı düzəliş etmək üçün iki uğursuz cəhdi təyini-müqəddərat nəzəriyyəsindən infuzoriya və amöb mütəxəssisi Şavarş Koçaryandan daha yaxşı başı çıxan AŞPA üzvlərinin əksəriyyəti tərəfindən rədd edilib. Yolunu azaraq səhvən XİN-ə gəlib çıxmış S.Koçaryan bu yaxınlarda tarix sahəsində bilikləri ilə “parlayaraq” xatırladıb ki, Azərbaycan Respublikası dünyanın xəritəsində cəmi 100 il əvvəl yaranıb, amma o, əlavə etməyi unudub ki, Ermənistan Respublikası da elə həmin xəritədə ilk dəfə nə bir gün tez, nə də bir gün gec, məhz həmin gün peyda olub. Cəhənnəm olsun Koçaryan. İndi o, ölkəsi üçün növbəti rüsvayçı qətnamədə uzun müddət “konfet” axtarmalı olacaq.

Biz prinsipial mövqeyinə və Ermənistan nümayəndə heyətinin şantaj və təhdidlərindən çəkinmədiyinə görə məruzəçi Vladimir Aryevə təşəkkür edirik, Azərbaycanın Avropa Şurasındakı nümayəndə heyətini və daimi nümayəndəlikdəki diplomatlarımızı bu sanballı işə görə təbrik edirik.

Fürsət düşmüşkən, Aryevə təzyiqlər barədə: Ermənistan nümayəndə heyətinin marginal səviyyəsini və onun xanım üzvlərinin küçə qadınları kimi vay-şüvən qoparmaq istedadını belə bir fakt da təsdiq edir ki, nüfuzlu məruzəçini guya onun ulu nənəsinin “azərbaycanlı” olmasında ittiham ediblər (məhz ittiham ediblər). Ah bu “azərbaycanlı ulu nənələr!” Gör onlar nə boyda “fəlakətə” səbəb olublar, bədbəxt ermənilərin nə qədər qanını içiblər! Ermənistanın AŞPA-dakı nümayəndə heyətinin üzvü xanım Rustamyana çətin çatsın ki, hesabat müəllifinin təkcə ulu nənəsi deyil, lap bütün nəsli azərbaycanlı olsa belə, onun məruzəsi AŞPA-nın BÜTÜN tərkibinin sərverməsinə çıxarılır və burada da belə deyək də, heç də hamının nəsil şəcərəsində “azərbaycanlı ulu nənə” kimi bir sərvət yoxdur və onların azad səsvermə zamanı ulu nənənin “iz qoyduğu” bəndlərdə ermənilərin düzəlişlərini dəstəkləmək imkanı var.

Ancaq burası da var ki, Şavarş Koçaryanın və bütün Ermənistan nümayəndə heyətinin səviyyəsindən intəhasız danışmaq olar.

Qəbul edilmiş qətnamə ilə bağlı Emin Hüseynov başda olmaqla, siyasi mühacirlər sırasından bir qrup üzüdönüyün səylərini xatırlamaq da xüsusi aktuallıq kəsb edir. Onlar bu günlərdə AŞPA-ya müraciət edərək, qurumu bütün Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnu dayandırmağa çağırıblar. Hesab etmək olar ki, bu addım belə mühüm səsvermə ərəfəsində, əvvələn, sifarişçilərin qrantlarının əvəzini ödəmək, ikincisi, sözügedən qətnaməni darmadağın etməkdə erməni nümayəndə heyətinə kömək etmək məqsədi ilə atılıb. Bu petisiyanı imzalayan “vətəndaş cəmiyyətinin fəalları” deyilən 58 nəfər arasında yaxın günlərdə Prezident İlham Əliyevin Fərmanı ilə əfv olunanlar çoxdur.

***Vüqar Seyidov***

# “İSTƏYİRİK Kİ, BEYNƏLXALQ YÜKDAŞINMASI HƏYATA KEÇİRƏN ŞİRKƏTLƏRİN İLK SEÇDİYİ MARŞRUT BAKI LİMANI VƏ XƏZƏR DƏNİZİ OLSUN”

***Azərbaycan Xəzər dənizi hövzəsində ən sərfəli, rahat və etibarlı logistik mərkəz rolunu oynayır.***

Bu sözləri Türkiyənin keçmiş mədəniyyət və turizm naziri, Prezident Rəcəb Tayyib Ərdoğanın baş müşaviri Yalçın Topçu deyib.

O bildirib ki, Türkiyədən Mərkəzi Asiyaya çıxmaq üçün ən qısa və sərfəli quru marşrutu Azərbaycan və Bakı dəniz limanlarıdır. Azərbaycan üzərindən həyata keçirilən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyəti son illər daha çox artıb. Şübhəsiz ki, Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının böyük rolu var. Digər tərəfdən isə son illər dünyanın Qərb və Şimal yarımkürəsi arasında yerləşən önəmli maliyyə və ticarət mərkəzləri Şərqə doğru istiqamətlənib.

Y.Topçu qeyd edib ki, bu yerdəyişmə ilə eyni vaxtda “İpək yolu” kimi tarixi ticarət marşrutları da ciddi aktuallaşmağa başlayıb. Eyni zamanda alternativ marşrutlar kəşf olunur. Bu baxımdan da Azərbaycan tarixən “İpək yolu” marşrutu üzərində öz əhəmiyyətli yerini qoruyub saxlayır. Bu gün Azərbaycan Xəzər dənizi hövzəsində ən sərfəli, rahat və etibarlı logistik mərkəz rolunu oynayır. Həmçinin Azərbaycan Şərq və Qərb, Şimal və Cənub coğrafiyasının tam mərkəzində yerləşən ölkədir. Azərbaycanın bu cür geostrateji mövqeyi




təkcə qonşu və regional dövlətlər üçün deyil, eyni zamanda digər dövlətlər üçün də əlverişli imkanlar yaradır. Yəni, İstanbul şəhəri dünyanın əsas mərkəzlərindən biri olduğu kimi, Bakı da yaxın gələcəkdə regionun Dubayına çevriləcək. Bu yaxınlarda İstanbulda salınacaq 3-cü böyük yeni hava limanı, 2016-cı ildə istifadəyə verilən Yavuz Sultan Səlim körpüsü və Avrasiya tuneli Türkiyə və dünya üçün nə qədər əhəmiyyətlidirsə, Ələtdə yerləşən Bakı Limanında yaradılacaq Azad Ticarət Zonası da Azərbaycan və Avrasiya regionu üçün o qədər vacibdir. Sadaladığım bu layihələr Azərbaycan və Türkiyənin yeni mənzərəsini yaradacaq.

Həmçinin Y.Topçunun sözlərinə görə, hazırda Türkiyə və digər dövlətlərə məxsus “TIR”ların Xəzər dənizi üzərindən yük daşıması Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə təmin olunur. Bakı Limanı “Ro-Ro” səfərlərini də həyata keçirməklə, öz əhəmiyyətini və rolunu daha da artırır.

“Təbii ki, bu rahatlıq və yüksək şərait Türkiyədən olan “TIR” sürücüləri və yükdaşıyan şirkətlər üçün də müsbət addımdır. Hazırda Türkiyə və Azərbaycan hökumətləri Xəzər dənizi üzərindən yükdaşınması və digər bu kimi işlərin həyata keçirilməsi ilə bağlı birgə iş aparırlar. Biz bu sahədə qardaş ölkəyə nə dəstək lazımdırsa, verməyə hazırıq. Biz də istəyirik ki, beynəlxalq yükdaşınması həyata keçirən şirkətlərin ilk seçdiyi marşrut Bakı Limanı və Xəzər dənizi olsun. Çünki Türkiyədən olan insanlarımız da qardaş Azərbaycanda öz ölkələrindəki kimi çox rahat olurlar”, - deyə Y.Topçu vurğulayıb.

Prezidentin baş müşaviri Yalçın Topçu bildirib ki, Türkiyədə keçirilən “G-20” sammiti çərçivəsində Türkiyə və Çin hökumətləri arasında əməkdaşlıq haqqında saziş imzalanıb. Həmin sazişlərin də həyata keçirilməsində Xəzər dənizi üzərindəki nəqliyyat keçidi layihələrindən istifadə edilməsi nəzərdə tutulur. Eyni zamanda Çinin təşəbbüs etdiyi “OBOR” açıq iqtisadiyyat layihəsində Bakı Limanının da yer alması mümkündür. Hazırda bununla bağlı ortaq işlər aparılır.

Y.Topçu Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin də Bakı Beynəlxalq Dəniz Ticarət Limanı layihəsinə böyük töhfələr verəcəyini söyləyib. Bakı-Tbilisi-Qars dəmiryolu xətti vasitəsilə daşınan yüklərin sayı daha da artacaq, şirkətlərin sayı çoxalacaq və alternativ sahələr yaranacaq. Bu da bütövlükdə Azərbaycan iqtisadiyyatına xidmət edəcək.







# “TUFAN” TİPLİ SƏRHƏD GÖZƏTÇİ GƏMİSİ XİDMƏTİ–DÖYÜŞ FƏALİYYƏTİNƏ BAŞLAYIB

***Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində inşası başa çatdırılan, yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin baxış keçirdiyi S 203 nömrəli “Tufan” tipli sərhəd gözətçi gəmisi xidməti–döyüş fəaliyyətinə başlayıb.***

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən bildiriblər ki, gəmi xidməti–döyüş fəaliyyətinə başlaması ilə əlaqədar Xəzər dənizinə endirilib.

Yeni gəmi mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı, müasir silahlar, o cümlədən raketlər və raket silahlarına qarşı kompleks, gecə-gündüz görmə müşahidə sistemləri və hidroakustik qurğu ilə təchiz edilib. Xəzər dənizində ağır üzmə şəraitində xidməti vəzifələrini yerinə yetirə bilən itisürətli qayıqlarla təchiz edilən və 62 metr uzunluğunda olan sərhəd gözətçi gəmisinin dəniz şəraitində göyərtəsinə helikopterin enməsi mümkündür. Yeni gəmidən dövlət sərhədlərinin mühafizəsi, sərhədboyu rejimin təmin edilməsi, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli, infrastrukturun təhlükəsizliyinin təmin edilməsi istiqamətində xidməti vəzifələrin icrası zamanı istifadə olunacaq.

# BƏZİ GƏMİLƏRİN BÜTÜN HEYƏT ÜZVLƏRİNƏ XÜSUSİ HAZIRLIQ KURSLARI KEÇMƏLƏRİ TÖVSİYƏ OLUNUB

***Səyyar, stasionar dəniz qurğularının və karbohidrogen yataqlarının işlənməsinə cəlb edilən gəmilərin bütün heyət üzvlərinə xüsusi hazırlıq kursları keçmələri tövsiyə olunub.***




Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən bildirilib ki, dəniz təhlükəsizliyini, insan həyatının mühafizəsini və dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınmasını təmin etmək məqsədilə, Beynəlxalq Dəniz Təşkilatının “Səyyar dəniz qurğularında çalışan heyətinin təlimi üzrə tövsiyələr” adlı A.891(21) nömrəli Qətnaməsinin, Neft və Qaz Sənayesi Heyətinin Təlim Təşkilatının (OPITO) “Neft və qaz sənayesində fövqəladə halların qarşısının alınması üzrə mütəxəssislərin hazırlığı və səriştəliliyinin effektiv idarə edilməsinə dair” təlimatının tələblərinə uyğun olaraq, səyyar, stasionar dəniz qurğularının və karbohidrogen yataqlarının işlənməsinə cəlb edilən gəmilərin bütün heyət üzvlərinə xüsusi hazırlıq kurslarının keçirilməsi tövsiyə edilir.

Keçiriləcək kurslara “Dəniz obyektlərində təhlükəsizliyin əsasları və fövqəladə hallarda davranış üzrə hazırlıq” (BOSIET) kursu, “H2C (kükürd qazı)” hazırlıq kursu daxildir. Bu kurslar səyyar dəniz qurğularının bütün heyəti üçün vacib hesab olunur.

Karbohidrogen yataqlarının işlənməsinə cəlb olunan gəmilərin bütün heyəti üçün “Dənizçilərin hazırlanması, onlara diplom verilməsi və növbə çəkməyə dair” beynəlxalq konvensiyanın tələb etdiyi kurslardan əlavə olaraq “H2C (kükürd qazı)” hazırlıq kursu, “Helikopterdə təhlükəsizlik və qəza vəziyyətində təxliyə” hazırlıq kursu da vacib hesab olunan kurslar sırasındadır. Gələcəkdə bu kursların keçirilməsi zəruri hesab ediləcək.

Qeyd edilən kursların Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası tərəfindən tanınmış “Occupational Training İnternational” Təlim Mərkəzində yanvarın 30-dan başlayaraq keçirilməsi nəzərdə tutulur.

# 13 MİN KONTEYNER YERİ OLAN GƏMİLƏR LİMANA YAN ALA BİLƏCƏK



***SOCAR-ın sərmayə qoyduğu “Petlim Limancılık Ticaret A.Ş.” şirkətinin 1,5 milyon TEU konteyner saxlama gücünə malik terminalının ikinci mərhələsi bu ilin iyununda istifadəyə veriləcək.***

Bu sözləri “SOCAR Turkey Enerji A.Ş.”nin (STEAŞ) baş direktoru Zaur Qəhrəmanov deyib. O bildirib ki, İzmirin Əliağa rayonundakı liman iki mərhələdən ibarət olacaq və 380 milyon dollara başa gələcək. Birinci mərhələ artıq yekunlaşıb. 13 min konteyner yeri olan gəmilər limana yan ala biləcək. “Petlim” Egey dənizi hövzəsində ən iritutumlu limandır. Bu, hər konteynerə görə 200-250 dollar əlverişli xərci təmin edir. Birinci mərhələ üzrə həftənin 5 günü xidmət göstərilir.

Qeyd edək ki, SOCAR-ın Türkiyədəki ən böyük aktivi və səhmlərinin təxminən 53 faizi STEAŞ-a məxsus olan “Petkim PetroKimya Holding A.Ş.”nin törəmə şirkəti “Petlim Limancılık Ticaret A.Ş.” öz səhmlərinin 30 faizini 300 milyon dollara “Goldman Sachs” şirkətinə satıb. Hazırda limanın 70 faizlik hissəsi SOCAR-a, 30 faizlik hissəsi isə “Goldman Sachs”a aiddir. “Petlim”i ilk 28 il müddətində Hollandiyanın “APM Terminals” şirkəti idarə edəcək.

Xatırladaq ki, SOCAR 2008-ci ilin mayından etibarən Türkiyədəki fəaliyyətini STEAŞ adı ilə davam etdirir. STEAŞ-ın səhmdarları belədir: SOCAR - 87 faiz, “Goldman Sachs” - 13 faiz.

# TANAP LAYİHƏSİ ÜZRƏ İŞLƏRİN 60 FAİZİ TAMAMLANIB

***Trans-Anadolu qaz boru kəmərinin (TANAP) quru hissəsinin inşası çərçivəsində 4 lot üzrə indiyədək 1574 kilometr uzunluğunda xəndək qazılıb. Boru kəmərinin 56 düym diametrli və ümumilikdə 1334 kilometr uzunluğundakı ilk üç lotu üzrə xəndəyin qazılması artıq yekunlaşıb.***

Bu barədə AZƏRTAC-a eksklüziv müsahibəsində TANAP-ın baş direktoru Saltuk Düzyol deyib.

O bildirib ki, bu vaxtadək TANAP-ın 4 lotu üzrə 1430 kilometr borular marşrut xətti boyunca düzülüb. Əsas xətt üzrə isə 1350 kilometr uzunluğunda boruların qaynağı tamamlanıb.

“Həmçinin ilk üç lot üzrə yanvarın sonuna nəzərdə tutulan ümumilikdə boruların hər seksiya üçün qaynağının 60 faizi və boruların basdırılmasının 60 faizi Lot-1, Lot-2 və Lot-3 üçün müvafiq olaraq 36, 15 və 55 gün əvvəl başa çatdırılıb”, - deyə S.Düzyol əlavə edib.

TANAP-ın baş direktoru deyib ki, hazırda boru kəmərinin inşası işləri çərçivəsində xətt boyunca daimi və mobil düşərgə sahələrində, eləcə də stansiyaların və





“Telecom-Scada” sisteminin tikintisi işlərində 9 min işçi çalışır. TANAP-ın mərkəzi və əyalətlərdəki sahələrində xidmət göstərən şəxsi heyətlə birlikdə bu rəqəm 10 min nəfərə çatır. Layihə üzrə avadanlıqla təmin edən və xidmət göstərən digər böyük, orta və kiçik müəssisələrdə işlərə cəlb edilənlərlə birlikdə TANAP-da çalışanların ümumi sayı 15 min nəfərdir.

Qeyd edək ki, Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından çıxarılan qazı Türkiyəyə və bu ölkədən Avropaya nəql edəcək TANAP “Cənub” qaz dəhlizinin tərkib hissəsi olan digər layihədir. TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə “Trans-Adriatik” (TAP) qaz boru kəmərinə birləşəcək. Uzunluğu 1810 kilometr olan TANAP-ın Əskişəhərə qədər olan hissəsinin 2018-ci ilin ortasında istismara verilməsi nəzərdə tutulur. Boru kəmərinə tələb olunan kapital xərcləri 8,5 milyard ABŞ dollarıdır. Layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 2020-ci ilədək ümumilikdə 6,2 milyard dollar olacağı nəzərdə tutulur. TANAP layihəsi üzrə işlərin 60 faizi tamamlanıb.

Boru kəmərinin Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1334 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 450 kilometrdir. Bundan başqa, TANAP 2x36 düym diametrli 18 kilometr uzunluğunda sualtı hissədən də ibarətdir. TANAP-ın tikintisi üzrə ilk mərhələ sona çatdırılıb və hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması imkanı var.

TANAP-ın səhmdarlarının bu layihədə payı belədir: “Cənub Qaz Dəhlizi” QSC - 58 faiz, “Botaş” - 30 faiz və BP şirkəti - 12 faiz.

# ÖZBƏKİSTANIN KUN.UZ PORTALINDA ƏLƏTDƏ YARADILAN BAKI LİMANI HAQQINDA MƏQALƏ YERLƏŞDİRİLİB

***Azərbaycanın Özbəkistandakı səfirliyi və onun nəzdindəki Heydər Əliyev adına Azərbaycan mədəniyyət Mərkəzinin təşəbbüsü ilə Daşkənddəki kun.uz portalında Ələtdə yaradılan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı haqqında “Ələt Qafqazın Dubayı olacaq - zənginlik vəd edən məkan” sərlövhəli məqalə yerləşdirilib.***



kun.uz/ru/65746319

УЗБЕКИСТАН МИР ОБЩЕСТВО ЭКОНОМИКА КУЛЬТУРА СПОРТ ТЕХНОЛОГИИ СТИЛЬ ЖИЗНИ

Алат станет Дубаем на Кавказе? – Пространство, обещающее богатство

В один из обычных дней 1985 года индус, продающий в пакете чай, по ошибке заходит в один из офисов бизнес центра, расположенный в пустыне, и этим способствует установлению мировой центральной зоны свободной торговли. По ошибке индусского торговца, обративший безграничную пустыню в 47,1 кв.км. в центр Европы, Азии и Африки, превращает её в один из главных мест соединения (по английски «hub» - соединение, узел – ред.), где проживают представители 200 национальностей, где в течение года бывает более сотен инвесторов и куда наведываются более 5 миллионов туристов.

ГЛАВНЫЕ НОВОСТИ ДНЯ

Шавкат Мирзиёев посетил Каракалпакстан

Опрос: 97,5% граждан уверены в завтрашнем дне

«Народ должен доверять медработникам» — Шавкат Мирзиёев

Си Цзиньпин: Китай и Узбекистан - надежные партнеры

Reviving Ancient Silk Road

"Qadrdonlar"

Materialda əvvəl Dubayın Cabal Əli limanı haqqında məlumat verilir, bildirilir ki, Azərbaycan da belə analoji inkişaf modeli yaratmaq niyyətindədir.

Yazıda deyilir ki, Azərbaycan coğrafi cəhətdən Avropa ilə Asiyanın, Şərqlə Qərbin və Çindən Avropaya gedən Böyük İpək Yolunun qovşağında yerləşir.

Bildirilir ki, bu gün Azərbaycandan keçməklə Avropadan Asiyaya və Asiyadan Avropaya müxtəlif yüklər daşınır və getdikcə yüklərin həcmi qat-qat artacaq.

Vurğulanır ki, 2016-cı il martın 17-də “Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sərəncam imzalayıb və bu istiqamətdə fəaliyyətə başlanılıb.

Materialda Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində görülən işlər haqqında ətraflı məlumat verilir, bildirilir ki, tikinti işlərinin birinci mərhələsi 2017-ci ilin sonunda başa çatmalıdır.

*Qulu Kəngərli*

# “TÜRK AXINI” LAYİHƏSİ ÜZRƏ HÖKUMƏTLƏRARASI SAZİŞ RATİFİKASİYA EDİLİB

***Rusiya Dövlət Duması bu ölkənin təbii qazının Türkiyəyə nəqlini nəzərdə tutan və iki boru xəttindən ibarət olan “Türk axını” qaz boru kəməri (“Turkish Stream”) layihəsi üzrə hökumətlərarası sazişi ratifikasiya edib.***




Dumanın məlumatında layihənin Türkiyə və Avropaya təbii qazın təhlükəsiz və tranzit riski olmadan nəql edilməsinə imkan yaradacağı deyilir. Bildirilir ki, qaz boru kəmərinin ilk xətti ixrac rüsumları şəklində Rusiya büdcəsinə ildə 750 milyon ABŞ dolları həcmində vəsait qazandıracaq.

Xatırladaq ki, ötən il dekabrın 16-da Rusiya hökuməti “Türk axını” qaz boru kəməri üzrə müqavilənin təsdiq olunması barədə qanun layihəsini qəbul edib. “Türk axını” müqaviləsinin qəbul olunması üzrə qanun layihəsinin təsdiq edilərək Dövlət Dumasına göndərilməsinə qərar verilib.

Dekabrın 6-da isə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya təbii qazını Qara dənizi keçməklə Türkiyəyə çatdıracaq “Türk axını” qaz boru kəməri layihəsi üzrə iki ölkə arasında imzalanan hökumətlərarası sazişi ratifikasiya edib.

Oktyabrın 10-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Rusiya Prezidenti Vladimir Putinin görüşündə “Türk axını” qaz boru kəməri layihəsi üzrə hökumətlərarası saziş imzalanıb. Sazişi Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak və Rusiyanın energetika naziri Aleksandr Novak imzalayıblar.

“Türk axını” ilə Rusiya təbii qazının Türkiyədən keçməklə Avropaya çatdırılması nəzərdə tutulur. Kəmərlə ümumilikdə 31,5 milyard kubmetr qazın Avropanın, qalan hissəsinin isə Türkiyənin daxili tələbatının ödənilməsi üçün istifadə edilməsi planlaşdırılır. Layihə üzrə iki boru kəmərinin tikilməsi nəzərdə tutulur.



# İRİLƏŞDİRİLMİŞ NEFTYIĞMA MƏNTƏQƏSİ MÜASİR TƏLƏBLƏRƏ CAVAB VERƏN BÜTÜN ZƏRURİ AVADANLIQLARLA TƏCHİZ OLUNUB

***SOCAR-ın “Azneft” İstehsalat Birliyinin (İB) sifarişi ilə “Neftqaztikinti” Tresti tərəfindən “Neft Daşları” yatağında inşa olunan 2A saylı İriləşdirilmiş Neftyığma Məntəqəsi (İNYM) istismara verilib.***

SOCAR-ın mətbuat xidmətindən verilən məlumata görə, “Neft Daşları” Neft və Qazçıxarma İdarəsinin (NQÇİ) köhnəlmiş separasiya qurğularının yeniləri ilə əvəz edilməsi, eləcə də Xəzər dənizinin neft məhsullarından çirklənməsinin qarşısının alınması üçün neft və lay sularının yığılması, utilizasiyası sistemlərinin yaradılması məqsədilə tikilən yeni İNYM-in inşaat işləri beynəlxalq standartlara uyğun yerinə yetirilib.

Məntəqənin meydança hissəsi 10 ədəd dayaq blokundan, 9 ədəd aralıq seksiyasından, həmçinin 7 ədəd minik və yanalma meydançasından ibarətdir. Meydançanın üst hissəsində 4 ədəd 370 kubmetrlik çökdürücü, mədənlərdən gələn neftin ilkin yığımı üçün 4 ədəd 10 kubmetrlik neft tutumu, təmizlənmiş neft üçün 2 ədəd 200 kubmetrlik çən, lay suyu üçün 2 ədəd 1000 kubmetrlik çən inşa edilib. Çökdürücülər üçün “çiləmə soyutma sistemi” və köpüklə avtomatlaşdırılmış yanğınsöndürmə sistemi, həmçinin drenaj bloku, bioloji təmizləmə qurğusu və digər texnoloji avadanlıqlar quraşdırılıb, müxtəlif diametrli və təyinatlı boru xətləri çəkilib. İNYM müasir tələblərə cavab verən bütün zəruri avadanlıqlarla təchiz olunub.

2A saylı İNYM sutkada 2 min 500 kubmetr neft, 3 min 250 kubmetr lay suyunu ayırmaq gücünə malikdir.

# DUNAY ÇAYINDA GƏMİ DONUB

***Dunay çayının Rumıniyanın Kalaraş şəhəri yaxınlığından keçən hissəsində göyərtəsində dənizçilərin olduğu gəmi donub. Gəmidə ərzaq və su bitdiyindən Rumıniya Daxili İşlər Nazirliyi tərəfindən helikopter vasitəsilə oraya yardım göndərilib.***



Son günlər Avropada hökm sürən soyuq hava şəraiti quru, hava və su nəqliyyatında hərəkətin iflic olması, bəzi bölgələrdə elektrik enerjisinin verilməsində fasilələrin yaranmasına gətirib çıxarıb. Sinoptiklərin məlumatına görə, Avropanın bir çox bölgələrində soyuq hava şəraiti bu həftə də davam edəcək.

*İqbal Hacıyev*

# XƏZƏR DƏNİZİNƏ VƏ KÜR ÇAYINA 850 MİNDƏN ÇOX QIZIL BALIQ BURAXILIB

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamentinin Qəbələ Qızıl Balıqartırma Zavodunda yeni kürüalma mövsümü davam edir.***

Zavodun direktoru Səfayət Qaçayeva bildirib ki, qiymətli balıq növlərinin yetişdirilməsinə görə respublikada mühüm əhəmiyyət kəsb edən Qəbələ Qızıl Balıqartırma Zavodunda Kür qızıl balığı, əlvan formalı qızıl balıq, yapon fareli və nərə balıqları yetişdirilir.

Hazırda bu müəssisədə qızıl balıqların artırılması sahəsində işlərin qızğın çağıdır. Zavodun mütəxəssisləri ana balıqdan götürdükləri kürünü erkək balıqlardan əldə edilən maya ilə xüsusi qablarda qarışdırırlar. Qızıl balıqlar kürü tökməklə çoxalır və bu balıqların kürüsü suda mayalanır. Qızıl balıqları mayalandırma prosesi qaranlıq yerdə aparılır və kürü bir saatdan sonra yuyularaq təmiz suya tökülür. Kürüdən çıxandan sonra zavodda üç mərhələdə inkişaf dövrü keçirən xırda qızıl balıqlar bir il müddətində müxtəlif ölçülü 8 hovuzda bəslənilir. Mütəxəssislər onların yeminə xüsusi diqqət yetirirlər. Zavodda kürüdən çıxan 15 günlük balıqlar 8 qrama çatanadək xüsusi yetişdirilən "Alaxet" qurdları ilə bəslənilir. Həmçinin balıqlara yerli ət məhsullarından hazırlanan kompleks qida verilir. Onların qida rasionuna qurd sürfəsi, yumurta sarısı, balıq və iribuynuzlu heyvanın çəkilmiş dalaq və qara ciyəri daxildir.

Cari mövsümdə müəssisə 60 mindən çox körpə balıq yetişdirməyi qarşısına məqsəd qoyub. Digər müəssisələrdən fərqli olaraq bu müəssisədə balıqlar kürü mərhələsindən yetişdirilməyə başlayır. Belə ki, ana balıqlar xüsusi şəraitdə yemləndirilərək onlardan yüksək keyfiyyətli kürü alınır. Belə kürülər götürülərək mayalandırılmaq üçün inkubator sexinə aparılır.

Səfayət Qaçayeva qeyd edib ki, inkubator sexi sakit və qaranlıq olmalıdır. Kürülərə işıq düşdükdə balıqların əmələgəlmə prosesi pozulur. Kürülər mayalandırıldıqdan sonra xüsusi vannalarda saxlanılır və 30-35 gün müddətində xırda balıqlara çevrilir. Belə balıqlar körpələr adlanır. Onların çəkisi təxminən 0.5-1.0 qram olur. Çəkiləri 20 qramadək artıqdan sonra bu balıqlar Xəzər dənizinə buraxılmaları üçün adaptasiya olunur. Son mərhələdə dənizə buraxılmaq üçün yetişdirilən balıqların çəkisi təxminən 300 qrama çatdırılır.





Hazırda zavodda ən nadir balıqlardan sayılan nərə balıqlarının kürülərinin alınması üçün elmi təcrübələr aparılır. Bu məqsədlə zavoda gətirilən nərə balıqları artıq 2 ildən çoxdur ki, burada yaşayır. Nərə balıqları 7-8 yaşlarında kürü verdikləri üçün hələ bir neçə ildə bəslənilməlidir. Təcrübələr müvəffəqiyyətli olarsa, nərə balıqlarının şirin sularda yetişdirilməsi mümkün olacaq. Balıqlar təcrübə üçün dairəvi hovuzlarda saxlanılır. Belə balıqlar dünya bazarlarında yüksək qiymətə satılır.

Qəbələdə qızıl balıqların yetişdirilməsində ən vacib komponentlərdən biri də bu ərazidə dağ çaylarının olmasıdır. Çünki həssas, lakin yırtıcı sayılan qızıl balıqlar daim soyuq və tərkibi minerallarla münbit olan şirin su hövzələrində yaşamağı sevirlər. Çəkisi nisbətən çox olan qızıl balıqlar daha kiçik balıqları yedikləri üçün onlar ayda bir dəfə seçilir və ayrı-ayrı kanallara yerləşdirilir.

Zavodda kürügötürmə prosesi hər il noyabrın 25-dən yanvarın ortalarınadək davam edir. Bir il ərzində yetişdirildikdən sonra balıqlar Qaradağ rayonunda yerləşən Xəzər dəniz təcrübi balıqartırma zavoduna verilir. Qızıl balıqlar orada şirin sudan duzlu suya uyğunlaşma dövrü keçirlər. Çəkisi daha çox artan balıqlar elə həmin ərazidən Xəzər dənizinə buraxılır. Hər ilin mayında Xəzəryanı dövlətlərin nümayəndələrindən ibarət birgə komissiyanın iştirakı ilə Qəbələ Qızıl Balıqartırma Zavodunda yetişdirilən qızıl balıqlar yoxlanılır və çəkisi, rəngi və uzunluğu dövlət standartına uyğun gələn balıqlar komissiyanın rəyi əsasında Xəzər dənizinə buraxılır.

1956-cı ildə istifadəyə verilən Qəbələ Qızıl Balıqartırma Zavodu hazırda Xəzər dənizini və ölkədaxili su hövzələrini qızıl balıq növləri ilə təmin edən istehsalat sahəsidir. Son 17 il ərzində Qəbələdəki balıqartırma zavodu tərəfindən 850 mindən çox qızıl balıq yetişdirilərək Xəzər dənizinə və Kür çayına buraxılıb.

Bu zavod Kür çayının üzərində tikilən elektrik stansiyaları Xəzərdə yaşayan bir sıra nadir balıqların kürü verməsi üçün bu çaya keçməsinə maneə yaratdığından belə nadir balıqların nəslinin artırılması məqsədilə yaradılıb. Zavodda 4 növ qiymətli balıq yetişdirilir ki, bunlar da ən nadir sortlardır.

Qeyd edək ki, balıqartırma sənayesinə görə Azərbaycan Xəzər regionunda Rusiyadan sonra ikinci yeri tutur.



## 12 GÜNDƏ AVROPAYA DƏNİZ YOLU İLƏ 1159 MİQRANT GƏLİB

***2017-ci ilin ilk 12 günündə Avropaya dəniz yolu ilə mindən çox miqrant və qaçqın gəlib.***

Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına görə, yanvarın 12-dək əsasən Yunanıstan və İtaliya vasitəsi ilə Avropaya keçən miqrant və qaçqınların sayı 1159 nəfər təşkil edib. Həmin müddətdə Türkiyədən Yunanıstana yalnız 430 miqrant keçib. Halbuki ötən ilin müvafiq dövründə onların sayı 22 min nəfəri ötmüşdü.

Hazırda Avropa İkinci Dünya müharibəsindən sonra ən ciddi miqrasiya böhranı yaşayır. Bu böhran ilk növbədə Yaxın Şərq və Şimali Afrika ölkələrindəki silahlı münaqişələrdən və iqtisadi problemlərdən qaynaqlanır.

## DÜNYA OKEANI SƏVİYYƏSİNİN QORXULU YÜKSƏLİŞİ YÜZLƏRLƏ BÖYÜK ŞƏHƏRLƏRİN YER ÜZÜNDƏN SİLİNMƏSİNƏ SƏBƏB OLACAQ

***Amerikalı və irlandiyalı alimlərin proqnozuna görə, yüzlərlə böyük şəhərlərin Yer üzündən silinməsinə səbəb olacaq dünya okeanı səviyyəsinin qorxulu yüksəlişi geoloji ölçülərə görə yaxın vaxtda - bir neçə yüz ilə baş verəcək.***



Bu barədə məlumat "Science" jurnalında yazılıb.

Təxminən 116-129 min il əvvəl olmuş buzlaşmalararası sonuncu böyük dövrdə dünya okeanı səthinin temperaturu təxminən indiki səviyyədə olub. Hələ o zaman dünya okeanının səviyyəsi indikindən 6-7 metr çox qalxmışdı.

Lakin bəzi ekspertlər Arktika buzlarının daha tez – 2030-2050-ci illərdə tamamilə yox olacağını bildirirlər. Nəticədə ABŞ-ın Atlantik okeanı sahilləri, Uruqvay, Peru, Niderland və Danimarkanın sahilyanı əraziləri su altında qala bilər. Dünya xəritəsindən London, Venesiya, İsgəndəriyyə və Qahirə silinəcək.

Alimlər müvafiq proqnozları istixana qazlarının mənfi təsiri və qlobal istiləşmə təhlükəsi ilə əlaqələndirirlər.

Xatırladaq ki, buzlaşma Yerin geoloji tarixində dövri təkrarlanan və bir neçə milyon ilədək davam edən dövrdür. Həmin dövrdə materiklərdə buz örtükləri çoxalır, sonra isə onların əriməsi prosesi başlayır. Ekoloqların çoxunun proqnozuna görə, məhz buzlaşma dövrünün gəlməsi planeti qlobal istiləşmədən xilas edəcək.

# AZƏRBAYCAN İPƏK YOLU ZƏNCİRİNDƏ AÇAR ROL OYNAYIR

***Çinin nüfuzlu "China Daily" qəzetində "Azərbaycan İpək yolu zəncirində açar rol oynayır" başlıqlı məqalə dərc olunub.***

Məqalədə Asiya ilə Avropanı birləşdirən ticarət yolları baxımından böyük potensialı olan, zəngin enerji və təbii resurslara malik Azərbaycanın Çin Xalq Respublikasının Sədri Si Cinpinin irəli sürüdüyü İpək yolu iqtisadi kəməri strategiyasında vacib ölkə olduğu vurğulanır.



CHINADAILY.COM.CN | EUROPE

HOME CHINA CHINA-EUROPE UK WORLD BUSINESS CULTURE LIFESTYLE TRAVEL SPORTS OPINION FORUM VIDEO

• E-paper\Comment

Azerbaijan forms a key link in the Silk Road chain

By Malik Ayub Sumbal | China Daily Europe | Updated: 2017-01-20 07:27

Strategically-placed nation bears witness to the huge potential of trade route linking Asian and European nations

Azerbaijan, a modern south Caucasus country on the Caspian Sea - rich in oil and natural resources - is a key link in the Silk Road Economic Belt, the Chinese vision for a route connecting Asia, Europe and the rest of the world.

China has huge development projects in this region, involving billions of dollars of investment and trade.

In 2013, Chinese President Xi Jinping put forward the Silk Road Economic Belt initiative, signifying multidirectional cooperation between Eastern and Western countries throughout Central Asia and the Caucasus region.

In March 2015, China declared its Visions and Actions on Jointly Building the Silk Road Economic Belt and 21st-Century Maritime Silk Road.

Top Views | Most Popular

China's vice Finance Minister: China made two major contributions to world economy in 2016

China's inevitable role in pushing the frontier of innovation

Trump accusing China on phantom grounds

Strategies for addressing demographic challenges

Infrastructure is the way to a united world

Use clean energy for heating to reduce smog

Columnists

Chen Weihua — Time for US politicians to stop misinforming public about China-US relations

Qeyd olunur ki, hələ qədim İpək yolu dövründən dəniz və quru yolu ilə ticarət edənlər coğrafi mövqe baxımından Çin-Mərkəzi Asiya-Qərbi Asiya iqtisadi dəhlizində xüsusi əhəmiyyət daşıyan Azərbaycana gəlirdilər.

Müəllif yazır ki, Qərbi Xan süləsinin hakimiyyəti illərində Çinin Roma imperiyası ilə ticarət əlaqələrinin Azərbaycan üzərindən keçməsinə dair tarixdə faktlar var. Qədim İpək yolu üzərində ən təhlükəsiz yol hesab edilən Azərbaycanın Bərdə şəhəri bir vaxtlar ticarət mərkəzi idi. Tarixən olduğu kimi, indi də Çindən Qərbi Asiyaya ən qısa yol Bakıdan keçir.

Bildirilir ki, hazırda Aktau və Türkmənbaşı liman şəhərlərindən yüklər Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, oradan isə Türkiyə və Avropaya daşınır. Çinin Şıxeci şəhərindən yola çıxan yük qatarı sınaq rejimində Aktau limanı vasitəsilə Bakıya gedib çıxıb.

Məqalədə, həmçinin Azərbaycandan keçən Şimal-Cənub nəqliyyat dəhlizi üzərində iş getdiyi, yaxın zamanlarda Rusiya və İranı birləşdirəcək bu dəhlizin Hind okeanı ölkələrinin Avropaya çıxışını təmin edəcəyi diqqətə çatdırılır.

Qeyd olunur ki, Azərbaycan Çin ilə Avropa arasında yüklərin daşınmasını təmin edəcək Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılması üçün qonşu ölkələrlə razılıq əldə edib.

İnşası başa çatmaq üzrə olan Bakı-Tbilisi-Qars dəmir yolunun "Dəmir İpək yolu" adlandırıldığını vurğulayan müəllif yazır ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə 2020-ci ilədək 300-400 min konteynerin daşınması ehtimal olunur.

Azərbaycan ilə Çin arasında münasibətlərin sürətlə inkişafından bəhs edilən məqalədə qeyd edilir ki, Azərbaycan İpək yolu layihəsində Çinin dəyərli tərəfdaşı olmaq potensialına malikdir.

Yazıda Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri barədə məlumat verilir. Bildirilir ki, bu kəmərlər vasitəsilə Azərbaycan nefti və qazı Avropanın enerji təchizatını təmin edir.

***Şahin Cəfərov***



## QAYIĞIN BATMASI NƏTİCƏSİNDƏ ÖLƏNLƏRİN SAYI 26-YA ÇATIB

***Hindistanda Qanq çayında qayığın çevrilməsi nəticəsində həlak olanların sayı 26-ya yüksəlib.***

"France-Press" agentliyinin yaydığı məlumata görə, hadisə yanvarın 14-də - şənbə günü axşam Qanq çayının Bihar ştatı ərazisindən keçən hissəsində, Patna şəhəri yaxınlığında baş verib. Xilasedicilər gecə 22 cəsədi sudan çıxarıblar. Səhər isə daha 4 nəfərin cəsədi tapılıb.

Məlumatda qeyd olunur ki, 30 nəfər üçün nəzərdə tutulan qayığa 50-dən çox insan minib. Çaya düşənlərdən 10-12 nəfəri üzərək sahilə çıxa bilib. Daha 8 nəfər xilas edilərək xəstəxanaya yerləşdirilib.

Hazırda axtarış-xilasetmə işlərinin davam etdiyi bildirilir.

## 8 ADAMIN 3,6 MİLYARD İNSANIN KAPİTALINA BƏRABƏR VARİDATI VAR

***"Oxfam" humanitar təşkilatı Davos forumu ərəfəsində dünya üzrə varlı və kasıb insanlar arasındakı fərqi hesablayıb.***



Interfax informasiya agentliyi xəbər verir ki, kasıblıqla mübarizə aparan təşkilatın məruzəsinə əsasən, dünyanın ən varlı 8 adamı 3,6 milyard insanının kapitalına bərabər varidata malikdir.

Planetin ən varlı insanları siyahısına "Microsoft" kompaniyasının banisi Bill Qeyts başçılıq edir. "Forbes" jurnalının məlumatına görə, onun varidatı 75 milyard dollara çatır.

Məruzədə, həmçinin "Facebook" sosial şəbəkəsinin banisi Mark Sukerberqin (44,6 milyard dollar), investor Uorren Baffetin (60,8 milyard dollar), Nyu-Yorkun sabiq meri və media maqnatı Maykl Blumberqin (40 milyard dollar), "Amazon" kompaniyasının banisi Ceff Bezosun (45,2 milyard dollar), Meksikalı biznesmen Karlos Slimin (50 milyard dollar), "Oracle" transmilli korporasiyasının qurucularından biri olan Larri Elisonun (43,6 milyard dollar), həmçinin "Zara" mağazalar şəbəkəsinin banisi ispaniyalı Amansio Orteqanın (67 milyard dollar) adları var.

# "KASPİYSKİYE NOVOSTİ" PORTALI XƏZƏRYANI BÖLGƏNİN MEDİA MƏKANINI BİRLƏŞDİRƏCƏK

***Həştərxan vilayəti qubernatoru administrasiyasının mətbuat xidməti idarəsinin təşəbbüsü ilə yeni informasiya layihəsi – "Kaspiyskiye novosti" adlı beynəlxalq informasiya portalı işə başlayıb.***

"Kaspiyskiy press-sentr" Rusiya informasiya agentliyi tərəfindən həyata keçirilən bu layihənin məqsədi Xəzəryanı bölgənin media məkanını birləşdirmək, vahid informasiya məkanı yaratmaq, auditoriyanın diqqətini Xəzəryanı dövlətlərdə baş verən iqtisadi, siyasi və humanitar proseslərə və hadisələrə cəlb etmək, bu dövlətlərin xalqlarının inkişafına, onların inteqrasiyasının dəstəklənməsinə və fəallaşmasına kömək etməkdir.

Layihənin həyata keçirilməsi gedişində dörd Xəzəryanı ölkənin (Azərbaycan, İran, Qazaxıstan və Türkmənistan) hər birinin, habelə Rusiyanın Xəzər sahillərində yerləşən üç regionunun (Həştərxan vilayəti, Kalmıkiya və Dağıstan) müxbirləri tərəfindən hər gün bu saytın




səhifələrində onlayn rejimində xəbərlər yerləşdirilməsi üçün portalın xüsusi müxbir şəbəkəsinin yaradılması nəzərdə tutulur.

Portalda "Xəbərlər" rubrikasından əlavə tematik bölmələr yaradılıb. Beləliklə, oxucular "Xəzər beşliyi" ölkələri barədə mühüm və maraqlı məlumatlar əldə edə biləcəklər.

"Layihələr" bölməsində Xəzəryanı ölkələrin biznes layihələri, investisiya ideyaları, müştərək müəssisələri barədə materiallar yerləşdirilir. Bu informasiya işgüzar adamlar, sərmayədarlar, hakimiyyət orqanlarının rəhbərləri, habelə yeni fəaliyyətə başlayan sahibkarlar üçün maraqlı olacaq.

"Persona" rubrikasında Xəzəryanı ölkələrdə sərhədyanı əməkdaşlıq və inteqrasiya ideyalarının təbliği məsələsində mühüm rol oynayan ekspertlərin, alimlərin, siyasətçilərin, ictimai təşkilatların liderlərinin, ekoloq və biznesmenlərin müsahibələri, onlardan sitatlar, müəllif məqalələri və oçerklər dərc ediləcək.

"Xronoqraf" bölməsi eksklüziv müəllif mətnləri, rəngli illüstrasiyalar, fotoşəkillər və nadir arxiv sənədləri vasitəsilə Xəzəryanı ölkələrin xalqlarının həyatı ilə bağlı maraqlı tarixi faktları öyrənməyə imkan verəcək.

"Turizm" bölməsində Xəzəryanı ölkələrin dini ziyarətgahları, mədəni və təbii baxımdan əlamətdar yerləri, bu xalqların bayramları, suvenirləri, xalq sənətləri, milli mətbəxi və xalq yaradıcılığı barədə söhbət açılır.

Layihənin həyata keçirilməsi Xəzəryanı dövlətlər arasında işgüzar və humanitar əlaqələri möhkəmlətməyə imkan verəcək, Xəzəryanı ölkələrin ərazisində yeni birgə layihələr həyata keçirilməsinə şərait yaradacaq.

***Fərida Abdullayeva***

## 800 MİLYONA YAXIN İNSAN ACLIQDAN ƏZİYYƏT ÇƏKİR



***Dünya Ərzaq Proqramının (DƏP) icraçı direktoru Ertarin Kazin Davosda keçirilən Dünya İqtisadi Forumunda çıxış edərək, 2030-cu ilə qədər bütün dünyada aclığın kökünün kəsilməsinə dair "yol xəritəsi" – konkret kollektiv tədbirlər planı təqdim edib.***

Ertarin Kazin biznesmenlərə xatırladıb ki, müasir bolluq dünyasında 800 milyona yaxın insan doyunca yeməməkdən və aclıqdan əziyyət çəkir.

BMT Xəbər Mərkəzi bildirir ki, E.Kazin deyib: "Ac dünya heç vaxt sağlam dünya ola bilməz". Onun fikrincə, aclığın kökünü artıq indiki nəslin həyatı dövründə kəsmək mümkündür, lakin bunun üçün bütün beynəlxalq birliyin səyləri birləşdirilməlidir.

DƏP rəhbəri beynəlxalq korporasiyaların, milli biznes şirkətlərinin liderlərini dünyada aclığa qarşı mübarizənin innovasiyalı metodlarına qoşulmağa, ehtiyacı olan insanların qida məhsulları, ərzaq vauçerləri və maliyyə vəsaitləri ilə təmin edilməsi layihələrini dəstəkləməyə çağırıb.



# HEYƏT ÜZVLƏRİ XİLAS EDİLSƏ DƏ...

***Şimali Koreya bayrağı ilə üzən quru yük daşıyan gəmi yanvarın 12-nə keçən gecə Yaponiyanın Naqasaki prefekturasının Fukue adası yaxınlığında batıb. Gəmi heyətinin üzvləri xilas edilib.***

NHK telekanalının yaydığı məlumata görə, gəminin qəzaya uğradığı barədə məlumat yanvarın 11-də axşam daxil olub. Qəzaya uğrayan gəminin göyərtəsində olan 26 nəfər heyət üzvü Yaponiya Sahil Mühafizəsi tərəfindən xilas edilib.

Gəminin batması səbəbləri barədə məlumat verilmir. Qeyd olunur ki, Şimali Koreyaya məxsus gəmi bu ölkənin Phyonan-Namdo əyalətinin Nampho şəhərindən Kanvondo əyalətinin Vonson şəhərinə düyü aparırmış.



## SU EHTİYATLARININ 85 FAİZİ 10 ƏN BÖYÜK GÖLÜN PAYINA DÜŞÜR

***Kanadanın Makqil Universitetinin alimləri dünya göllərində yığılan su ehtiyatlarının həcmini qiymətləndiriblər.***

lenta.ru saytı xəbər verir ki, araşdırma "Nature Communications" jurnalında dərc olunub. Bütün dünyada mövcud olan 1,4 milyon xırda gölün ərazisi 10 hektardan (14 futbol meydançası) artıqdır. Bu su mənbələri 180 min kubkilometr su verir.

Su ehtiyatlarının 85 faizi isə dünya üzrə 10 ən böyük gölün payına düşür. Göllər daha çox Kanadada (həcminə görə 62 faiz) təxminən on min il öncə buzlaqların əriməsi nəticəsində yaranıb. Göllərin ümumi sahil xətti (yeddi milyon kilometr) Dünya okeanından dörd dəfə, Ay ilə Yer arasındakı məsafədən isə on dəfə çoxdur. Əgər təbii su ehtiyatları planetin səthində bərabər paylansaydı, onda su təbəqəsinin qalınlığı 1,3 metr təşkil edərdi.

Alimlər peykdən alınan məlumatların kompüter analizini apararaq bu qənaətə gəliblər.

## SUYA QƏRQ OLMUŞ YEDDİNCİ QİTƏ TƏDQİQ EDİLƏCƏK

***Yaponiya Dövlət Geologiya-Dəniz Elmləri və Texnologiyalar Agentliyi (JAMSTEC) 23 milyon il əvvəl Yeni Zelandiya rayonunda suya qərq olmuş yeddinci qitənin tədqiqi ilə məşğul olacaq.***

TASS informasiya agentliyi xəbər verir ki, dənizin dibində işlər üçün nəzərdə tutulmuş "Tikyu" ("Yer") unikal tədqiqat gəmisinin köməyi ilə 2019-cu ildə bu zonada dərin qazma işləri aparmaq planlaşdırılır.

Yeni Zelandiya batmış qitənin okeanın səthində görünən hissəsidir. Bu ölkənin payına onun sahəsinin cəmi 5-7 faizi düşür. Qitə şərti olaraq "Zelandiya" adlandırılır. Onun təqribən 4,5 milyon kvadratkilometrlik böyük hissəsi okean səthindən təxminən min metr dərinlikdə yerləşir.

Qazma işləri "Zelandiya"nın ölçülərini daha dəqiq müəyyən etmək, onun suya qərq olmasının səbəblərini və sürətini aydınlaşdırmaq üçün nəzərdə tutulub.

Qeyd edək ki, "Tikyu" 2014-cü ildə Sakit okeanın dibində 3058 metr dərinlikdə quyu qazaraq dünya rekordu müəyyən edib.





## İNFORMASİYANI KİMƏSƏ DANIŞIN Kİ...

***Amerikalı psixoloqlar informasiyanı yadda saxlamağın səmərəli üsulunu açıqlayıblar.***

"lenta.ru" saytı xəbər verir ki, müvafiq tədqiqat "Learning & Memory" jurnalında dərc edilib.

Mütəxəssislərin fikrincə, hər hansı məlumat alandan sonra onu yaxşı yadda saxlamaq üçün kiməsə danışmaq lazımdır. Nəticədə yeni informasiyanı və onun təfərrüatını hətta bir həftə sonra da beyində eynilə canlandırmaq olar.

Alimlər tələbələrin iştirakı ilə tədqiqat apararaq bu qənaətə gəliblər. İştirakçılara yarım saat ərzində 40 filmdən 24 saniyəlik çarxlar nümayış etdirilib. Eksperimentdə iştirak edənlər videodakı ümumi süjeti, həmçinin müxtəlif detalları, o cümlədən personajların səslərini, rənglərini və jestlərini yadda saxlamalı idilər.

Videoya baxandan sonra oradakı informasiyanı bir-birinə danışan tələbələr tapşırığın öhdəsindən daha yaxşı gəliblər.

# XƏZƏR DƏNİZİNİN İXTİOFAUNASI DA MÜAYİNƏ EDİLİB

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) heyvani xəstəliklərin mövcudluğunu araşdırmaq məqsədilə aparılan son monitorinqin nəticələrini açıqlayıb.***

ETSN-in rəsmi saytı xəbər verir ki, araşdırma Hirkan, Şahdağ və Ağgöl Milli Parklarında, Binəqədi şosesi yaxınlığında yerləşən təbii su hovuzunun sahili və Keyrəki palçıq vulkanının yaxınlığında, Xəzər dənizində həyata keçirilib.



Hirkan Milli Parkında canavar, tülkü, dovşan, siçan, qaban, oxlu kirpi və quş ekskrementlərindən götürülmüş 19 ədəd bionümunədə bakterioloji müayinələr aparılmış və heç bir infeksion xəstəliyə rast gəlinməyib.

Binəqədi şosesi yaxınlığında yerləşən təbii su hovuzunun sahili və Keyrəki palçıq vulkanının yaxınlığında bir qarğa və siçovul cəsədlərinə rast gəlinib. Keçirilmiş bakterioloji və virusoloji analizlər zamanı bağırsaqda infeksion olmayan xlamidiya və salmonella bakteriyaları aşkarlanıb.

Ağgöl Milli Parkında H1N1 virusun və digər heyvani xəstəliklərin mövcudluğunu araşdırmaq məqsədilə tülkü, dovşan, qaban, canavar, maral və quş ekskrementlərindən 12 bionümunə götürülərək müayinə edilib. Milli parkın ərazisində infeksiyon xəstəliklər aşkarlanmayıb.

Şahdağ Milli parkında quduzluq xəstəliyinin qarşısının alınması üçün aparılan monitorinq zamanı bir çaqqal cəsədinə rast gəlinib. Aparılan analizlər nəticəsində quduzluq virusu aşkar olunmayıb.

Xəzər dənizinin ixtiofaunasının müayinəsi zamanı isə Zirə kəndinin ətraf ərazisindən və kəndə yaxın olan dəniz sahilindən beş balıq və su ilanı cəsədindən patmaterial, bionümunələr götürülərək müayinə edilib. Müayinələr zamanı patogen mikroorqanizmlər aşkarlanmayıb.




***İnternet istifadəçiləri çox zaman asan tapıla bilən parollardan istifadə edirlər. "Keeper Security" şirkəti böyük resurslardan məlumatların axını nəticəsində 10 milyon parola sahib olub.***

## ÇOX DA ETİBARLI DEYİLMİŞ...

***Beləliklə, şirkət 2016-cı ildə istifadəçilər arasında ən populyar parolların reytinqini hazırlamağa nail olub.***

psm7.com saytı xəbər verir ki, "123456" rəqəmlərinin kombinasiyası ən məşhur parollar reytinqinin dəyişilməz lideridir. Ondan 17 faiz insan istifadə edib. Onluğa daxil olan dörd parol isə bu kombinasiyanın müxtəlif variantlarıdır.

Parol qismində "1q2w3e4r" və ya "123qwe" kimi hərf və rəqəmlərin kombinasiyaları istifadəçilərin təhlükəsizlik məqsədilə gözlənilməz nümunələrdən istifadə etməyə çalışdığını göstərir.

Məlumatların qorunmasının əsas üsulu kimi parollardan istifadə çox etibarsız təcrübədir. Statistikaya əsasən, istifadəçi 10-20 proqram üçün mürəkkəb və unikal parolları yadda saxlaya bilmir. Bu səbəbdən parol problemi zaman keçdikcə daha da aktual olur.

Ekspertlər növbəti bir neçə il ərzində parolların "ölümünü" proqnozlaşdırırlar. Onları gələcəkdə informasiyanın qorunmasının daha etibarlı üsulu – biometriya əvəz edəcək.

## ROBOT-JURNALİSTİN YAZDIĞI İLK MƏQALƏ SƏRNİŞİN DAŞINMASINDA YARANAN SIXLIQ İLƏ ƏLAQƏDARDIR

***Pekin Universitetinin professoru tərəfindən hazırlanan "Siao Nan" adlı robot-jurnalistin "Southern Metropolis Daily" qəzetində ilk məqaləsi çap olunub. Məqalə şərq ay təqvimi ilə qeyd olunan Yeni il ərəfəsində Çində sərnişin daşınmasında yaranan sıxlıq ilə əlaqədardır.***



Robot-jurnalistə 300 heroqlifdən ibarət məqaləni hazırlamaq üçün cəmi 1 saniyə vaxt lazım olub. Robotu hazırlayan ekspertlər deyiblər ki, "Siao Nan" həm kiçik, həm də iri həcmli məqalələr yazmaq imkanına malikdir. Böyük məlumat bazası, sürətli hesablama və axtarış sistemi ilə təmin olunan robot insan jurnalistdən fərqli olaraq məlumatları daha tez təhlil edə və məqalə hazırlaya bilir. Lakin bu o demək deyil ki, robot-jurnalistlər insanları əvəz edə biləcək. Çünki onlar müsahibə ala, dialoq qura bilmirlər.

Çin kütləvi informasiya vasitələri robotlardan istifadəyə böyük maraq göstərir. Bir müddət əvvəl "Dreamwriter" adlı robot-jurnalist Çinin internet nəhəngi olan "Tencent"in səhifəsində ilk məqaləsini yazmışdı. Ötən il yay Olimpiya oyunları zamanı Çinin internet qəzetlərindən birində "Xiaomingbot" adlı robot-jurnalistin ölkə idmançılarının yarışları haqqında xəbərləri yerləşdirilmişdi. Robot Olimpiya günlərində operativ qaydada 450 xəbər hazırlaya bilmişdi.

Bundan başqa, bir neçə TV kanalı hava proqnozlarını təqdim etmək üçün robot-aparıcılardan istifadə edir. Ölkənin milli xəbər agentliyi Sinxua da son vaxtlar bəzi statistik xəbərlərin hazırlanmasını robotlara tapşırır.

*Şahin Cəfərov*



## PƏNCƏRƏLƏRİ DƏNİZƏ BAXAN EVLƏRƏ VERGİ ARTIRILIR

***Portuqaliyanın fiskal orqanları daşınmaz əmlaka, o cümlədən dəniz mənzərəsinə baxan evlərə qoyulan verginin dərəcəsini artırıb.***

"vergiler.az" saytı bildirir ki, bundan sonra pəncərəsindən dəniz görünən ev sahibləri 20 faiz artıq vergi ödəyəcəklər.

Maraqlısı odur ki, pəncərəsi şimala açılan və ya pəncərəsindən qəbiristanlıq görünən ev sahibləri əmlak vergisini 10 faiz güzəştlə ödəmək hüququna malikdirlər.

Artıq qüvvəyə minmiş bu qanun yalnız yeni tikilən binalara, eləcə də yenidən qiymətləndirilmiş mənzillərə tətbiq olunur. Əmlaka qoyulan vergi hesablanarkən, hansı mərtəbədə yerləşməsindən asılı olmayaraq, mənzilə günəş işığının düşməsi nəzərə alınır.

Yeni qaydalar əhali tərəfindən birmənalı qarşılanmayıb.

## MİSİR MƏHKƏMƏSİ MÜBAHİSƏLİ ADALARI SƏUDİYYƏ ƏRƏBİSTANINA VERMƏYİ QANUNSUZ HESAB EDİR

***Misirin Ali İnzibati Məhkəməsi Qırmızı dənizdəki Tiran və Sənafir adalarını Səudiyyə Ərəbistanına verməyi qanunsuz hesab edib.***

Euronews telekanalının verdiyi xəbərə görə, adaların təhvil verilməsi barədə saziş 2016-cı ilin aprel ayında Səudiyyə Ərəbistanı kralının Misirə səfəri zamanı imzalanmışdı.

Saziş həmin ilin iyun ayında administrativ hakim tərəfindən ləğv edilmiş və hökumət bu qərardan Ali İnzibati Məhkəməyə şikayət vermişdi.

Akaba boğazının çıxışında yerləşən Tiran və Sənafir adaları strateji əhəmiyyətə malikdir. Adaların təhvil verilməsinin əleyhdarları onların 1906-cı ildən Misirə aid olmasını təsdiqləyən sənədlər təqdim edib. O vaxt Səudiyyə Krallığı hələ mövcud deyildi.

Rəsmi Qahirə Misirin ən iri maliyyə donoru olan Səudiyyə Ərəbistanının adalar üzərindən keçməklə hər iki ölkəni birləşdirəcək körpülər tikəcəyinə ümid bəsləyirdi.



## YARIZARAFAT, YARIGERÇƏK

**Məqsədə çatmağın yolları çoxdur: ən qısa, qısa, uzun, ən uzun. Tələsənlər, adətən ən uzun yolu "seçirlər".**

**Həyatını özü zəhərə çevirənə dünyanın bütün balı da kömək eləməz.**

**Bir yerdə dayanmayın, daim irəliyə doğru hərəkət edin. Dayansanız, ya qabaqdakılardan çox geri qalacaqsınız, ya da arxadakılar sizi əzib, üstünüzdən keçəcəklər.**

**Onu bilirəm ki, istedadlı adamlar lovğalanmağa vaxt sərf etmirlər.**

**Mənəvi cəhətdən zəngin adamlara hər şey, xüsusən var-dövlət çox yaraşır.**

**Özümə özümü bağışlamağa imkan versəm, sonra heç kim məni bağışlamaz.**

**Mən əsl dostun olduğuna inanıram. Amma əsl dost uduşlu bilet kimi bir şeydir. Mənim isə belə şeylərdə bəxtim heç zaman gətirməyib.**

**İstənilən problemə həlli mümkün olmayan məsələ kimi yanaşsanız, elə də qalacaq. Yox, problemə həll etmək istəyi ilə yanaşsanız, gec-tez həlli yolunu tapacaqsınız.**

**Bir vaxtlar haqqında yaxşı düşündüyünüz adamlar haqqında sonralar fikrinizi dəyişmisinizsə, pis adam kimi tanıdıqlarınız haqqında da səhvə yol vermədiyinizə niyə belə əminsiniz?**

**Ən azı, Allahdan gizlədə bilməyəcəyimiz üçün, pis işlərə birdəfəlik əlvida demək lazımdır.**

**Təmizlənməyə qorxan insan çirkabın içində batıb qalacaq.**

**Tamam pis adam yoxdur. Hər adamın içində o qədər gözəl keyfiyyətlər yatıb ki! Sadəcə o keyfiyyətləri aşkar etmək və çox səbirlə oyatmaq lazımdır.**

**Heç nəyi uzatmayın. Qısa və aydın danışın. Hamımızın sahib olduğu ən dəyərli şey vaxtdır.**

**Düşməni bağışlamazlar. Biz isə qanımıza susamış erməniləri çox bağışladıq. Bağışlaya-bağışlaya da bizə qarşı daha çox namərdlik etdilər. Allahsız iş görənlər bağışlanasıdırlarsa, biz yox, qoy Allah bağışlasın.**

**Ürəyimizin genişliyindən biz hamı ilə, hətta yaxşı tanımadığımız adamlarla da əvvəlcə dost olmağa çalışırıq, sonra onları tanımağa başlayırıq, daha sonralar isə zəif yerlərimizdən vurduqları zərbələrin ağrı-acısını çəkə-çəkə yaşayırıq.**

**Alçaq dağları neçə nəfər yaradıb e?...**

**Xoşbəxtliyin ayağına getməyəndə, bədbəxtlik adamın qucağına atılır.**

**İtirməyə nəyi isə olan xoşbəxtdir.**

**Nəyi isə qazanmaq üçün ola bilsin ki, nəyi isə satmaq lazımdır. Amma, qəti əminəm ki, satılan vicdan olmamalıdır.**

**Başa çıxartmağa heç nə olmayanda da, ayaqaltıları başa çıxartmazlar.**

**İnformasiya-kommunikasiya dövründə də sözü köhnə qayda ilə gəzdirərlər?**

**Nikbinlik yaxşı şeydir. Amma bu, o demək deyil ki, ağlamalı şeylərə də güləsən.**

**Qaşqabağı yer süpürənlər çox olan yerdə xadimələrə nə ehtiyac?**

**Sonraya heç bir işi saxlamaq olmaz. Sonranın öz işləri olur.**

**Hətta ən işgüzar adamların da bir neçə yerə işləməsi onlara şərəf gətirmir.**

**Bəziləri deyəsən axırıncı dəfə həqiqəti ağılları kəsməyəndə söyləyiblər.**

**Adam var, ona nəyisə hətta ən yaxşı poçtalyon da çatdıra bilməz.**

**Verən əlləri olmayanlar toplamanı çıxmadan daha yaxşı bilərlər.**

**Yaxşı insanın içindəki gözəllikdən yaxşı şey yoxdur.**

**İndi yaxşılığı da gizlində edirəm ki, bəzilərinin gözündə avam təsiri bağışlamayım.**

**İşdə işi-peşəsi araqarışdırmaq olanların şənbə, bazar və bayram günləri yəqin çox darıxdırıcı keçir.**

**Getmək havayıdır deyə, bəzi məsələlərdə çox uzağa getmək lazım deyil.**

**Niyə pis adamların əllərindən hər cür pis işlər gəlir, yaxşıların isə çox az yaxşı şeyə əlləri çatır?**

**Başqalarının sizə hörmət etməsi üçün bircə səbəb də tapa bilmirsinizsə, bu, o demək deyil ki, pis axtarırsınız.**

**Hətta bahalı olsa da, daşı ətəkdən tökmək lazımdır.**

**Uduzmaq istəmirsinizsə, ədalətli hakimin idarə etməyəcəyi heç bir oyunda oynamayın.**

**Seçim imkanına sahibsinizsə, ən böyük sahibsiniz.**

**Mənə elə gəlir ki, heç nəyə aldanmadığı, kiminləsə heç vaxt alver etmədiyi və yalnız öz işini gördüyü üçün Əzrayıl daha çox hörmətə layiqdir.**

**Nəzərə alsaq ki, haqlı olmağım mənə heç nə qazandırmayıb, qazanmaq istəyənlər məndən uzaq dursunlar.**

**Özünü məndən yaxşı sayanların sayı baxımından dünya çoxdan düzəlməli idi.**

**Niyə layiq olana heç olmasa "Çox sağ ol"u vaxtında demirlər?**

**Adamlığı olmayanlar da Adəmin törəmələridir?**

**Ən böyük xam xəyal cəhənnəmlik iş görə-görə Cənnəti arzulamaqdır.**

**Dünyagörüşü dar olanlar başqalaraına gen dünyanı da dar edə bilərlər.**

**Allah sizi küt adamlardan qoruyursa, deməli çox bəlalardan qoruyur.**

**Yalnız sizə işi düşəndə mələyə dönənlərdən böyük şeytan var?**

**Qəribədir, barmağımı bala batırıb, ağızlarına qoyduğum adamlara hələ də çatmayıb ki, bütün normal adamlar kimi, mənim də cəmi on barmağım var.**

*Rasif TAHİROV*



# TAEKVANDO ÜZRƏ RESPUBLİKA BİRİNCİLİYİ BAŞA ÇATIB





***Azərbaycan Taekvando Federasiyasının təşkilatçılığı ilə "Sərhədçi" Olimpiya İdman Mərkəzində keçirilən respublika çempionatına yekun vurulub.***

Çempionatın sonuncu günündə böyüklər arasında ümumilikdə on çəki dərəcəsində qaliblər müəyyənləşib.

Kişilərin yarışında Fizam Mehdiyev (58 kq), Məmmədəli Quliyev (63 kq), Vladislav Subbotin (80 kq), Bayraməli Vəliyev (87 kq) və Ceyhun Həsənli (+87 kq) çempion adını qazanıblar.

Qadınların mübarizəsində isə Nərminə Məmmədova (46 kq), Patimat Abakarova (57 kq), Darya Şkurko (62 kq), Fəridə Əzizova (67 kq), Marina Tedeeva (73kq) və Jalə Kazımova (+73 kq) fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar.

Gənclər arasında 3 gün davam edən respublika birinciliyində isə 7 çəki dərəcəsində qaliblər müəyyənləşib.

Qızların yarışında Nərgiz Babayeva (46 kq), Nərmin Süleymanova (52 kq), Diana Hacıəliyeva (55 kq), Cənnət Balakişiyeva (59 kq) rəqiblərinə qalib gələrək çempion adına sahib olublar.

Oğlanların yarışında isə Qasım Aslanov (59 kq), Niyaz Zülfüqarlı (68 kq) və Orxan Tağızadə (78 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Çempionatda komanda hesabında qalib adına "Gilan" idman klubu layiq görülüb. "Neftçi" idman klubu ikinci, Mərkəzi Ordu İdman Klubu isə üçüncü yerin sahibi olub.

# SƏRBƏST VƏ YUNAN-ROMA GÜLƏŞİ ÜZRƏ NÖVBƏTİ AZƏRBAYCAN ÇEMPİONATI KEÇİRİLİB









***Bakı İdman Sarayında böyüklər arasında sərbəst və yunan-Roma güləşi üzrə növbəti Azərbaycan çempionatı keçirilib.***

Gənclər və İdman Nazirliyinin, Azərbaycan Güləş Federasiyasının (AGF) təşkilatçılığı ilə keçirilən yarışda 18 yaşı tamam olan və yuxarı yaşlı idmançılar iştirak ediblər. Şəxsi xarakter daşıyan yarışda idman cəmiyyət, klub və təşkilatlarının, şəhər və rayon yığma komandalarının tərkibinə daxil olan güləşçilər mübarizə aparıblar.

Azərbaycan çempionatında Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun (MOİK) idmançıları da mübarizə aparıblar. Yarışlara 18 idmançı ilə qatılan "hərbçilər"dən 10-u medal qazanıb. Olduqca yüksək nəticə əldə edən MOİK idmançıları həm sərbəst, həm də yunan-Roma güləşində medallar əldə ediblər.

Sərbəst güləş yarışlarının ilk günündə Ağahüseyn Mustafayev (65 kq) və Əşrəf Əliyev (74 kq) bürünc medal qazanıblar. Hər iki atlet dörddəbir finalda qalib gəlib, yarımfinalda məğlub olduqdan sonra bürünc medal uğrunda görüşdə rəqibini üstələyib.

Yunan-Roma güləşində isə MOİK idmançıları 8 medal qazanıblar. Bunların 1-i qızıl, 2-si gümüş, 5-i isə bürünc əyarlı olub. Qızıl medalı 80 kiloqram çəki dərəcəsində Rafiq Hüseynov əldə edib. Ümumiyyətlə, bu çəki dərəcəsində bütün medalları "hərbçilər" qazanıb - Nicat Abdullayev ikinci, Eltun Vəzirzadə isə üçüncü olub. Digər medallara Kərim Cəfərov (59 kq, gümüş), Murad Məmmədov (59 kq, bürünc), Şirxan Quliyev (71 kq, bürünc), Soltan İsmayılov (85 kq, bürünc) və Orxan Ələkbərov (98 kq, bürünc) sahib olublar.

Beləliklə, ölkə çempionatında MOİK idmançıları 1 qızıl, 2 gümüş və 7 bürünc medal qazanıblar.

Əlavə edək ki, ilk 3 yeri tutmuş idmançılar AGF tərəfindən müvafiq diplom, medal və pul mükafatı ilə təltif olunub. Mükafatçı güləşçilər ölkə yığma komandasının heyətinə cəlb olunacaq və il ərzində komandanın iştirak edəcəyi beynəlxalq yarışlarda ölkəmizi təmsil etmək imkanı əldə edəcəklər.

# "AZƏRBAYCAN GİMNASTİKASI FENOMENAL İNKİŞAF NÜMAYİŞ ETDİRİR"



***Azərbaycan gimnastikası son on ildə fenomenal inkişaf nümayiş etdirib. Azərbaycan Gimnastika Federasiyasının saytında yerləşdirilən məlumatda deyilir ki, bu sözləri Beynəlxalq Gimnastika Federasiyasının (FIG) vitse-prezidenti Slava Korn söyləyib.***

Onun sözlərinə görə, Azərbaycanda keçirilən çoxsaylı yarışlar ölkəni iri idman dövlətinə çevirib.

S.Korn deyib: "Mən 2007-ci ildə Azərbaycana ilk səfərimi xatırlayıram. Onda Bakıda dünya çempionatı keçirilirdi və siz beynəlxalq səviyyəyə yenicə çıxırdınız. Azərbaycanda gimnastika ötən on ildə fenomenal inkişaf nümayiş etdirib. Mən təkcə bədii gimnastikanın deyil, digər gimnastika növlərinin inkişafında da Federasiyanın rolunu və onun bu işə böyük töhfəsini qeyd etmək istəyirəm. Bakıda keçirilən bütün Dünya Kuboku yarışları və əlbəttə, Avropa Oyunları Azərbaycanı böyük idman ölkəsinə çevrilib".

Bakıda FIG hakimləri üçün Qitələrarası kursların təşkilatçılıq səviyyəsini yüksək qiymətləndirən S.Korn deyib: "Mən hakimlər üçün üç Qitələrarası kursda iştirak etmişəm və deməliyəm ki, Bakıdakı kurslar ən yüksək səviyyədə təşkil edilmişdi. Otel şəraiti, hakimlərin şəhər daxilində yerdəyişməsinin təşkili – hamısı ən yüksək səviyyədə idi. Mən gördükləri bu böyük işə görə təşkilatçılara təşəkkür edirəm".

FIG hakimləri üçün bədii gimnastika üzrə Qitələrarası kurslar yanvarın 17-dən 21-dək Bakıda keçirilib. Olimpiya siklində bir dəfə keçirilən bu kurslar hakimlərə bu kateqoriya üzrə ən yüksək sayılan birinci dərəcəni almaq imkanı verir.




# BAKIDA KEÇİRİLƏCƏK IV İSLAM HƏMRƏYLİYİ OYUNLARI DA MÜVƏFFƏQİYYƏTLƏ TƏŞKİL OLUNACAQ



***Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bu şəhərdə çox böyük və beynəlxalq standartlara cavab verən idman arenaları var.***

Bu sözləri AZƏRTAC-a müsahibəsində iranlı idmançı, taekvando üzrə beynəlxalq dərəcəli idman ustası Mehdi Rezvanpur deyib.

2014-cü ildə Bakıda keçirilən taekvando üzrə dünya çempionatında İranın idman şərəfini qoruyan M.Rezvanpur bildirib: "Azərbaycanda idmanın inkişafı üçün geniş imkanlar yaradılıb. Yarışlarda iştirak edən idmançılar üçün hər cür şərait mövcuddur. Eyni zamanda, Azərbaycanın beynəlxalq idman turnirlərinin keçirilməsi sahəsində zəngin təcrübəsi var. Bu, onu deməyə əsas verir ki, cari ilin mayında Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunları da müvəffəqiyyətlə təşkil olunacaq".

İranlı idmançı bildirib ki, bu Oyunlarda İslam ölkələrinin idmançıları bir araya gələcəklər. İdmançılar yarışlarda rəqabət aparsalar da, asudə vaxtda bir-biri ilə tanış olacaq və ünsiyyət quracaqlar. Bu da İslam həmrəyliyinə əhəmiyyətli töhfə olacaq.




# İDMAN DIRMANMASI ÜZRƏ AZƏRBAYCAN ÇEMPİONATINA YEKUN VURULUB



***Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının (FAIREX) təşkilatçılığı ilə "ClimBaku" İdman Dırmanması Mərkəzində çətinlik və sürət növləri üzrə keçirilən açıq ölkə çempionatına yekun vurulub.***

Çətinlik növü üzrə oğlanlar arasında yarışda Rinat Rəhimxanov birinci, Çingiz Tağızadə ikinci, Zöhrab Şahbalayev isə üçüncü yeri tutub. Qızların mübarizəsində isə Sima Səfərova, Leyla Əhmədova və Könül Hüseynova müvafiq olaraq ilk üç sırada qərarlaşıblar.

Sürət yarışında isə Rinat Rəhimxanov bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Çingiz Tağızadə ikinci, Fərid Şahbazov isə üçüncü olub.

# FIFA HAKİMLƏR KOMİTƏSİNİN YENİ SƏDRİ 6 DƏFƏ DÜNYANIN ƏN YAXŞI HAKİMİ OLUB



***Məşhur italiyalı hakim Pyerluici Kollina FIFA Hakimlər Komitəsinin sədri vəzifəsinə təyin olunub.***

İtaliya Futbol Federasiyasının rəsmi saytı xəbər verir ki, o, bu postda ispaniyalı Anxel Mariya Vilyarı əvəzləyib. Kollinadan başqa, qurumda daha 10 nümayəndə çalışacaq. Onlar qaydaların təkmilləşdirilməsi, izahı, yenilənməsi, eləcə də FIFA-nın himayəsi altında keçirilən oyunlara hakim təyinatı ilə məşğul olacaqlar.

Eyni zamanda, UEFA-da hakimlik məsələləri üzrə baş komissar kimi çalışan Kollina 6 dəfə (1998-2003) dünyanın, 7 dəfə İtaliya A Seriyasının ən yaxşı hakimi seçilib.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 236